*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

*№ 206 (29178) 19 sentyabr 2019-cu il, cümə axşamı*

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

## Prezident İlham Əliyev Belarus Təhlükəsizlik Şurasının dövlət katibinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham ƏLİYEV dedi:**

– Xoş gəlmisiniz. Sizi yenidən görməyimə şadam. Siz artıq ilk dəfə deyil ki, bizim ölkəmizə gəlirsiniz. Sizin hər səfəriniz qarşılıqlı maraq doğuran məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Münasibətlərimizin xarakteri və ruhu haqqında danışmağa ehtiyac yoxdur. Biz onları çox yüksək qiymətləndiririk. Onlar dostluğa, qarşılıqlı anlaşmaya, qarşılıqlı dəstəyə əsaslanır. Əminəm ki, sizin bu səfəriniz də münasibətlərimizin gələcək inkişafına töhfə verəcək.

Bizim siyasi qarşılıqlı fəaliyyətimizin səviyyəsi çox yüksəkdir. Demək olar ki, dövlət başçılarının, digər rəsmi şəxslərin müntəzəm səfərləri, ticari-iqtisadi sahədə yaxşı irəliləmələr, birgə layihələr, birgə istehsal, təhlükəsizlik sahəsində, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıq mövcuddur. Belə ki, münasibətlərimiz dərin məzmunla zəngindir və nəticəyə yönəlib. Bir də demək istərdim, münasibətlərimizin fərqli xüsusiyyəti ondadır ki, biz qərar qəbul edirik, qərarların həlli yollarını müəyyənləşdiririk və nəticəsini görürük. Düşünürəm ki, bu müsbət dinamika gələcəkdə də saxlanılacaq, münasibətlər uğurla inkişaf etdiriləcək, ölkələrimizə və xalqlarımıza fayda gətirəcək. Sizi bir daha Azərbaycanda salamlayıram.

**Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav ZAS dedi:**

– Sağ olun, hörmətli cənab Prezident, hörmətli İlham Heydər oğlu. Bugünkü görüşə görə sağ olun. Sizinlə görüşmək, söhbət etmək mənim üçün böyük şərəfdir.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

## *Mehriban ƏLİYEVA:*

## Hər iki dahi şəxsiyyətimizin – Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin xatirəsini dərin ehtiramla yad edirik



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Milli Musiqi Günü ilə əlaqədar İnstaqram səhifəsində paylaşım edib.**

Birinci vitse-prezidentin paylaşımında deyilir: "Bu gün Milli Musiqi Günüdür. 1885-ci il sentyabrın 18-də Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyli anadan olmuşdur. Onunla eyni ildə və eyni gündə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar Müslüm Maqomayev dünyaya gəlmişdir. Hər iki dahi şəxsiyyətimizin xatirəsini dərin ehtiramla yad edirik".

***AZƏRTAC***

## Bakı şəhərində çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Bakı şəhərində 380 çoxmənzilli binanın dam örtüyünün təmiri məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə 10,0 (on) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 sentyabr 2019-cu il**

## "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan sürətli inkişaf mərhələsinə daxil oldu



**Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında 1994-cü ildə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi üzrə Hasilatın pay bölgüsü sazişinin imzalanması yenicə müstəqillik qazanmış ölkəmiz üçün tarixi hadisə idi. Bu müqavilə ümummilli lider Heydər Əliyevin gərgin zəhməti hesabına gerçəkləşdi. Ulu öndər həmin sazişə təkcə Azərbaycana firavanlıq, sosial rifah gətirəcək iqtisadi sənəd kimi baxmırdı. O, "Əsrin müqaviləsi"ni, həm də Azərbaycanın istiqlalını qoruyacaq saziş kimi dəyərləndirirdi.**

> ***"Əsrin müqaviləsi"nin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər.***
>
> **Heydər ƏLİYEV**
> **Ümummilli lider**

Dünyanın 8 ölkəsini təmsil edən yüksək nüfuza malik, neft hasilatı üzrə ixtisaslaşan 13 iri neft şirkəti arasında "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənilməsini nəzərdə tutan beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adı ilə bütün dünyada məşhurlaşan saziş ötən müddətdə müasir Azərbaycanın tarixində mühüm rol oynayıb. Bu müqavilə ilə respublikamız özünün təbii sərvətlərinə sahib çıxmaq haqqını bütün dünyaya bəyan edib, milli mənafelərimizi, iqtisadi və strateji maraqlarımızı qorumaq əzmini göstərib.

Qeyd etdiyimiz kimi, müqavilənin bağlanmasında ümummilli lider Heydər Əliyev misilsiz rol oynayıb. Ulu öndərin 1993-cü ildə hakimiyyətə qayıdışı Azərbaycanın siyasi-iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoyub. "Əsrin müqaviləsi"nin bağlanması isə müstəqil dövlətimizin neft strategiyası və doktrinasının əsasına çevrilib, xalqımızın öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərib.

Dahi şəxsiyyətin yeni neft strategiyasının reallaşdırılmasında onun ən böyük silahdaşı məhz o zaman Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti cənab İlham Əliyev olub. Həmin dövrdə Vaşinqton, Nyu-York, Hyuston, Dallas, İstanbul və digər şəhərlərdə iri neft şirkətlərinin rəhbərləri ilə səmərəli görüşlər keçirən və danışıqlar aparan möhtərəm İlham Əliyev xalqımızın milli maraqlarına yönələn müqavilə şərtlərinin reallaşdırılması üçün gərgin əmək sərf edib. Prezident İlham Əliyev hələ o vaxt deyib: "Sazişlərin həyata keçirildiyi dövrdə neft sənayesinin infrastrukturu xeyli dərəcədə təzələnəcək və neft sənayemizin yeni, güclü infrastrukturu yaranacaqdır.

**(ardı 4-cü səhifədə)**




"Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib

▸▸ 2



"Əsrin müqaviləsi" – Azərbaycanın yüksəlişinin möhtəşəm təməli

▸▸ 4



Ermənistan əhalisi Paşinyanın qeyri-real vədlərinə inanmır

▸▸ 5



ABŞ ilə Yaponiya arasında ilkin razılaşma əldə olunub

▸▸ 8

## Belarusun Təhlükəsizlik Şurasının dövlət katibi ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



❒ ***Azərbaycanda səfərdə olan Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas sentyabrın 18-də Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.***

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Stanislav Zasa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

***AZƏRTAC***

## Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Belarus Təhlükəsizlik Şurasının dövlət katibi ilə görüşüb



❒ ***Sentyabrın 18-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev ölkəmizdə səfərdə olan Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə görüşüb.***

Müstəqillik illərində Azərbaycan-Belarus əlaqələrinin təməlinin 1994-cü ildə dövlət başçıları Heydər Əliyev və Aleksandr Lukaşenko tərəfindən qoyulduğunu xatırladan Ramiz Mehdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Belarus Prezidentinin qarşılıqlı səfərlərinin və görüşlərinin ikitərəfli münasibətlərimizin inkişafında xüsusi rol oynadığını vurğuladı.

Söhbət zamanı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri ilə Stanislav Zas arasında bundan əvvəl beynəlxalq təbirlərdə keçirilən görüşlər məmnunluqla xatırlandı.

Görüşdə Administrasiya rəhbəri Ramiz Mehdiyev 2020-ci ilin yanvar ayından Stanislav Zasın yeni vəzifənin icrasına başlayacağını qeyd edərək, bu münasibətlə təbriklərini çatdırdı və həmin vəzifədə çalışacağı dövrdə də Azərbaycanla Belarus arasında dostluq əlaqələrinin inkişaf edəcəyinə əminliyini ifadə etdi. Administrasiya rəhbəri Ramiz Mehdiyev Belarus Respublikasının Təhlükəsizlik Şurası ilə bundan sonra da yaxın əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

***AZƏRTAC***

# "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət istifadəyə verilib

❒ ***Sentyabrın 18-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.***



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Ümumi sahəsi 12000 kvadratmetr olan həyət Xətai rayonu, Lütfi Zadə 10, M.Rüstəmov 21, Sarayevo 19 ünvanlarında 2500 nəfər sakinin yaşadığı beş 9 mərtəbəli və iki 16 mərtəbəli binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.



Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti də nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları və uşaqlar üçün oyun meydançası salınıb.

Eyni zamanda, ərazidə velosiped yolu, 10 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac, gül kolları əkilib və 4500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuzuncu həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

***AZƏRTAC***

# YAP-ın Ağdam və Bərdə rayonundan olan fəalları ilə görüş keçirilib

❒ ***Sentyabrın 18-də Bərdə rayonunda Yeni Azərbaycan Partiyasının Bərdə və Ağdam rayonlarından olan fəalları ilə görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini Əli Həsənov, Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Ağdam və Bərdə Rayon İcra hakimiyyətlərinin başçıları Vaqif Həsənov, Vidadi İsayev və ictimaiyyət nümayəndələri iştirak ediblər.***



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Bərdə rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini Əli Həsənov çıxış edərək, əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb, rayon təşkilatının və partiya fəallarının qarşısında duran vəzifələrdən bəhs edib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 15 ildə ölkəmizdə qazanılmış böyük uğurlardan, genişmiqyaslı inkişafdan danışan Baş Nazirin müavini deyib: "Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasını xalqa xidmət təşkil edir. Prezidentlə xalq arasında monolit birlik var. Bu birlik sayəsində son 15 ildə ölkəmizdə ictimai-siyasi sabitlik, sosial-iqtisadi inkişaf, Azərbaycanın dünyaya inteqrasiyası təmin edilib. Son 15 ildə ümumdaxili məhsul 3,3 dəfə artıb. Ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub ki, bunun da təxminən yarısı xarici sərmayələrdir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fəaliyyətləri sayəsində Azərbaycan dünyaya tanıdılıb. Azərbaycan dünya dövlətləri arasında öz layiqli yerini tutub. Bu gün beynəlxalq əhəmiyyətli tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın dünyada artan nüfuzunun göstəricisidir".

Dövlətimizin başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını deyən Baş Nazirin müavini bildirib ki, cari ildə həyata keçirilən sosial islahatlar nəticəsində ölkəmizdə əməkhaqları, təqaüdlər, sosial müavinətlər və digər sosial ödənişlər əhəmiyyətli dərəcədə artırılıb. Məcburi köçkünlərə göstərilən diqqət və qayğının nəticəsidir ki, 102 yeni qəsəbə inşa edilib, 300 minə yaxın insan yeni mənzilə köçüb.

Əli Həsənov ordu quruculuğu və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən də bəhs edib. Bildirib ki, Azərbaycan Ordusu dünyanın ən qüdrətli ordularından biridir və işğal altında olan torpaqları istənilən vaxt azad etməyə qadirdir. Azərbaycan münaqişənin həllində heç bir güzəştə getməyəcək.

Baş Nazirin müavini, həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və partiyanın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. O, 2014-cü ildə keçirilən bələdiyyə seçkilərində bələdiyyə üzvü seçilənlərin 66,8 faizinin YAP üzvü olduğunu xatırladıb.

Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək, bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib.

Tədbirdə çıxış edən YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya ulu öndər Heydər Əliyevin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Diqqətə çatdırıb ki, YAP Bərdə rayon təşkilatı partiyanın ən böyük yerli strukturlarından biridir və öz sıralarında 11 min 432 üzvü birləşdirir. Onlardan 3582-si gənclərdir. Təkcə bu il partiya sıralarına 213 nəfər qəbul olub ki, onlardan 159 nəfəri gənclər, 162 nəfəri ali təhsillilərdir. YAP üzvləri rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Fəqət Şadlinskaya qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıq işlərindən də bəhs edib. YAP rayon təşkilatında seçki qərargahının yaradıldığını, seçkilərdə namizədlərin müəyyən edilməsi işinə başlanıldığını diqqətə çatdırıb.

YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. Bildirib ki, YAP Ağdam rayon təşkilatının 6728 nəfər üzvü var. Onlardan 2976 nəfəri qadınlar, 1545 nəfəri gənclərdir. Son zamanlar partiya sıralarına üzv qəbul olunmaq istəyənlərin sayı artmaqdadır. 2018-ci ildə və 2019-cu ilin 8 ayında 450 nəfər partiya sıralarına qəbul edilib ki, onlardan da 230 nəfəri gənclər, 323 nəfəri qadınlardır. Allahverən Əliyev rayonda gedən sosial-iqtisadi inkişaf, aparılan tikinti-quruculuq işlərindən, bələdiyyə seçkilərinə hazırlıqla bağlı həyata keçirilən tədbirlərdən danışıb.

Milli Məclisin deputatı Bəxtiyar Əliyev və Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev tədbirdə çıxış edərək, ölkəmizdə həyatın bütün sahələrində baş verən böyük inkişafdan, uğurlu sosial-iqtisadi islahatlardan söz açıblar. Bildirilib ki, həyata keçirilən dövlət proqramları, reallaşan böyük infrastruktur layihələri nəticəsində Azərbaycanın bölgələrinin siması tanınmaz dərəcədə dəyişib, vətəndaşların sosial təminatı əhəmiyyətli dərəcədə yüksəlib, insanların sosial-rifah halı yüksəlib.

Sonda YAP sıralarına yeni daxil olmuş gənclərin bir qrupuna partiya biletləri təqdim edilib.

# Bakı Musiqi Akademiyasının qarşısında Milli Musiqi Günü təntənəli şəkildə qeyd olunub



❒ ***Sentyabrın 18-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının qarşısında Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir Hacıbəylinin doğum gününə və Milli Musiqi Gününə həsr olunmuş təntənəli tədbir keçirilib.***

Tədbirdə Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak ediblər.

Tədbirdə Mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək hər il olduğu kimi, bu il də dahi bəstəkarın doğum gününün ölkəmizdə geniş şəkildə qeyd edildiyini söyləyib. "Biz fəxr edirik ki, Azərbaycan musiqisi böyük beynəlxalq festivallarda təmsil olunur. Azərbaycan musiqisi beynəlxalq aləmdə çox yüksək qarşılanır. Mən inanıram ki, Azərbaycan xalqı yenə də dünyaya böyük sənətkarlar bəxş edəcəkdir", -deyə nazir vurğulayıb.

Nazir bu musiqi bayramının tezliklə dahi bəstəkarın doğulduğu Şuşada keçiriləcəyinə əminliyini ifadə edib.

Ə.Qarayev dahi bəstəkarın adı ilə bağlı olan və artıq ənənəvi olaraq beynəlxalq səviyyədə keçirilən növbəti musiqi festivalının bütün musiqisevərlərə gözəl bir hədiyyə olacağını diqqətə çatdırıb: "Bu gündən start götürən Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalının proqramı olduqca zəngindir. Festival çərçivəsində bir sıra mədəniyyət müəssisələrində silsilə tədbirlər keçiriləcək, eyni zamanda, dünyanın müxtəlif ölkələrindən gələn musiqiçilər dahi bəstəkarın yaratdığı zəngin musiqi irsi ilə daha yaxından tanış olacaqlar".

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli 2021-ci ildə rəhbəri olduğu təhsil ocağının 100 illiyinin qeyd olunacağına diqqət çəkərək söyləyib ki, istər Azərbaycan musiqisi, istərsə də bu ali təhsil ocağı Üzeyir bəyin adı ilə bağlıdır: "Mən cavanlara müraciət edirəm ki, bizim mədəniyyətimizi təbliğ etməkdə fəallıq göstərsinlər, internetdə bizim mədəniyyətimizi yaysınlar".

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə isə Üzeyir Hacıbəylinin təkcə Azərbaycanın yox, bütün Şərqin günəşi olduğunu diqqətə çatdırıb: "Üzeyir bəy 1908-ci ildə "Leyli və Məcnun" operasını yazdıqdan sonra bizdə peşəkar bəstəkarlıq məktəbi yaradılıb. Biz bunu unutmamalı və hər zaman təbliğ etməliyik".

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi də çıxış edərək Üzeyir Hacıbəylinin Azərbaycan musiqisinə, mədəniyyətinə verdiyi töhfələrdən danışıb.

Çıxış edənlər, həmçinin dahi bəstəkarın zəngin həyat və yaradıcılığından söhbət açıb, milli Azərbaycan musiqisinin inkişafında Üzeyir Hacıbəyli məktəbinin rolunu xüsusilə vurğulayıblar.

Sonra Müdafiə Nazirliyinin Nümunəvi və Əlahiddə Hərbi Orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının ifasında klassik musiqi nümunələri təqdim olunub.

***AZƏRTAC***





**SOCAR-ın birinci vitse-prezidenti, akademik, Azərbaycan neftçilərinin ağsaqqalı, neft tariximizin canlı əfsanəsi Xoşbəxt Yusifzadə "Əsrin müqaviləsi"nin 25 illiyi ilə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb.**

# Xoşbəxt Yusifzadə: "Əsrin müqaviləsi" mənim gözlərim önündə ərsəyə gəlib

## *Azərbaycanın neft-qaz sənayesi "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 25 ildə əsrə bərabər inkişaf yolu keçib*



***–Xoşbəxt müəllim, "Əsrin müqaviləsi"nin 25 illik yubileyi münasibətilə şirkətinizdə, ilk növbədə, sizi təbrik etmək yerinə düşər. Çünki bu gün dillər əzbəri olan müqavilənin ərsəyə gəlməsində əsas simalardan biri olmusunuz. O dövr yaddaşınızda necə qalıb?***

–Təşəkkür edirəm. Mən də bütün Azərbaycan neftçilərini bu münasibətlə ürəkdən təbrik etmək istəyirəm. Tale belə gətirib ki, doğrudan da, "Əsrin müqaviləsi"nin ərsəyə gəlməsi mənim gözlərimin önündə baş verib.

Neft hasilatının artırılması hələ ötən əsrin 80-ci illərinin sonlarında aktual məsələyə çevrilmişdi. Bunun əsas səbəbi o idi ki, 1979-cu ildə kəşf olunmuş "Günəşli" yatağının dərinsulu hissəsində, 1985-ci ildə kəşf edilmiş "Çıraq" və 1987-ci ildə aşkarlanmış "Azəri" yataqlarında işləmək mümkün deyildi. O vaxtkı texnika və texnologiya ilə yalnız "Günəşli" yatağının suyun dərinliyi 200 metrədək olan hissəsində işləmək mümkün idi. Belə bir vaxtda Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft yataqlarının xarici neft şirkətləri ilə birgə işlənilməsi istisna edilmirdi. Xarici neft şirkətləri Azərbaycan hökuməti ilə danışıqlara artıq 1990-cı ildən başlamışdılar.

Məşhur xarici şirkətlərin Xəzərdəki neft yataqlarına marağını nəzərə alan SSRİ hökuməti o vaxt belə qərara gəldi ki, həmin şirkətlərlə birgə işlənilmək üçün müəyyən bir yataq ayrılsın. "Xəzərdənizneftqaz" İstehsalat Birliyinin təklifi ilə Azərbaycan hökuməti xarici şirkətlərlə birgə işlənilmək üçün "Azəri" yatağının seçildiyini bildirdi.

Azərbaycan SSR Nazirlər Sovetinin və SSRİ Neft və Qaz Sənayesi Nazirliyinin 1991-ci il 18 yanvar tarixli Qərarına əsasən, "Xəzərdənizneftqaz" İB xarici şirkətlərlə birgə müəssisə yaratmalı və bu birgə müəssisə "Azəri" yatağının birgə kəşfiyyatı və işlənilməsini həyata keçirməli idi. Bu məqsədlə tender keçirmək üçün SSRİ Neft və Qaz Sənayesi nazirinin birinci müavini Boris Aleksandroviç Nikitinin və Azərbaycan Respublikası Dövlət Plan Komitəsi sədrinin müavini Rafiq Mirzəyevin rəhbərliyi ilə 27 mütəxəssisdən ibarət təşkilat komitəsi yaradıldı. Tenderdə iştirak etmək üçün "Azəri" yatağı barəsində məlumatlar paketi 16 xarici şirkətə, o cümlədən ABŞ-ın 7 şirkətinə göndərildi. Buna cəmi 6 şirkət cavab verdi. Tender komissiyası bu şirkətlərin təkliflərini təhlil etdi və 1991-ci ilin iyun ayında tenderə yekun vuruldu. ABŞ-ın "AMOKO" şirkəti qalib elan edildi.

Elə həmin il Azərbaycan Respublikasının nümayəndə heyəti tenderdə qalib gəldiyini "AMOKO" şirkətinə bildirmək, onun rəhbərliyi və fəaliyyəti ilə, eləcə də ABŞ-ın neft sənayesi, ələlxüsus da bu ölkədə dəniz neftinin axtarışı və hasilatı ilə yaxından tanış olmaq üçün Amerikaya səfər etdi. O vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Fuad Musayevin başçılıq etdiyi nümayəndə heyətinin üzvlərindən biri də mən idim. Səfər yoldaşlarım isə o vaxt Azərbaycan KP MK-da məsul vəzifələrdə çalışan Natiq Əliyevlə Rauf Bayramov idi.

Bu, mənim okeanın o tayına ilk səfərim idi. ABŞ-da biz iyunun 23-dən iyulun 5-dək olduq. İyunun 24-də Hyustona gəldik və "AMOKO" şirkətinin tenderin qalibi hesab olunması barədə müsabiqə komissiyasının protokolunu şirkətin vitse-prezidenti Robert Blantona təqdim etdik.Təqdimat mərasimində "MakDermott", "Yunokal", "Britiş Petroleum" və digər şirkətlər barəsində Azərbaycan Respublikasının mövqeyini də bildirdik.

İkinci dəfə ABŞ-da 1992-ci ilin martında oldum.

"Azəri" yatağı ilə bağlı tender və bu tenderdə "AMOKO"nun qələbəsi artıq tarixə çevrilmişdi. Tender komissiyası özünün yekun sənədində "AMOKO" şirkətinə belə bir səlahiyyət də vermişdi ki, bu şirkət, tenderin qalibi kimi, lazım gələrsə, Azərbaycan hökumətinin razılığı ilə "Azəri" yatağında birgə işləmək üçün başqa şirkətləri də cəlb edə bilər. Buna görə də "AMOKO" şirkəti tenderdə iştirak etmiş "Yunokal" (ABŞ), "British Petroleum" (Böyük Britaniya), "Statoyl" (Norveç), "MakDermott" (ABŞ) şirkətlərini respublika rəhbərliyinin razılığı ilə birgə işləməyə dəvət etdi.

"AMOKO" şirkəti yatağın öyrənilməsinə və texniki-iqtisadi əsaslandırma (TİƏ) layihəsi üzrə işlərə 1991-ci ilin axırından başlamışdı. "Azəri" yatağına dair məlumat və sənədləri toplamaq məqsədilə şirkətin mütəxəssisləri (geoloqlar, geofiziklər, qazmaçılar, inşaatçılar, istismarçılar, ekoloqlar və başqaları) bir neçə dəfə Bakıda oldular. Lakin bu prosesin gedişində bizim mütəxəssislərin Hyustonda olmaması işlərin ləngiməsinə gətirib çıxarırdı. Buna görə də 1992-ci ilin mart ayında rəhbərlik etdiyim Azərbaycan mütəxəssislərindən ibarət qrup "AMOKO" şirkətinin Hyuston şəhərindəki mərkəzi ofisinə göndərildi. Biz "AMOKO" şirkətinin və onunla birgə işlər görən qərb şirkətləri mütəxəssislərinin apardıqları prosesə qoşulduq və "Azəri" yatağının birgə işlənilməsinin texniki-iqtisadi əsaslandırılması layihəsinin üzərində çalışmağa başladıq. Üç həftə davam edən bu birgə iş öz müsbət nəticəsini verdi. Layihənin 80 faizinə əməl edildi. Qrupların birgə fəaliyyəti nəticəsində "Azəri" yatağının ümumi konsepsiyası işlənib hazırlandı.

Hyustondan qayıtdıqdan sonra rəhbərlik etdiyim qrup texniki-iqtisadi əsaslandırmanın layihəsi üzərində işi davam etdirdi. Paralel olaraq, həmin layihə üzərində amerikalılar da işləyirdilər. Onlar bu işi 1992-ci ilin iyul ayında başa çatdırdılar. Sonra Bakıya gəlib layihəni baxılmaq üçün bizə təqdim etdilər. Bizim qrup bir ay ərzində layihəni dərindən öyrəndi, rəy və təkliflərini bildirdi. Bir müddətdən sonra bizi yenidən Hyustona dəvət etdilər. "Azəri" yatağının TİƏ layihəsini başa çatdırmaq lazım idi. 1992-ci il sentyabrın 12-də Azərbaycan Dövlət Neft Şirkəti mütəxəssislərinin bir qrupu Hyuston şəhərinə yola düşdü. Rəhbərlik etdiyim bu qrup "AMOKO"nun və Qərbin başqa şirkətlərinin mütəxəssisləri ilə birlikdə "Azəri" yatağının TİƏ layihəsi üzərində işi tamamladı. Həmin il sentyabrın 28-də layihənin qəbul protokolu imzalandı. Amma belə təsəvvür yaranmasın ki, guya bütün işlər rəvan gedirdi. Yox, bir çox məsələlər yalnız böyük mübahisələrdən sonra öz həllini tapırdı.

Bu dəfə kommersiya məsələlərində də böyük irəliləyiş oldu. Kontrakt bağlanana qədər yatağa sərf ediləcək vəsaitin, ümumi kapital qoyuluşunun həcmi təxmini də olsa dəqiqləşdirildi, digər iqtisadi məsələlər, o cümlədən gəlirin bölünməsi prinsipi ümumən razılaşdırıldı.

Lakin 1992-ci ildə Azərbaycanda hakimiyyətin dəyişməsi "Azəri" yatağı üzrə xarici şirkətlərlə müqavilənin imzalanmasını təxirə saldı. Həmin ilin sentyabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ, 2015-ci ildən - SOCAR) yaradıldı və xarici şirkətlərlə danışıqlar davam etdirildi. 1992-ci ilin sonlarında "Azəri" yatağı üzrə danışıqların predmetinə Xəzərin Azərbaycan sektorundakı "Çıraq" yatağı da əlavə edildi. "AMOKO", "Penzoyl" və BP şirkətləri ilə yanaşı, layihəyə Türkiyənin "Türk Petrolları Anonim Ortaq" şirkəti də ("TPAO") cəlb edildi. Lakin 1993-cü ilin iyun ayında imzalanması nəzərdə tutulan müqavilə yenə təxirə salındı.

1993-cü il iyunun 15-də xalqın tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə gəlmiş ulu öndər Heydər Əliyev ağır iqtisadi və siyasi vəziyyətə düşmüş respublikanı fəlakətdən xilas etmək üçün neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmağa başladı.

O vaxt "Azəri", "Çıraq", "Günəşli" (dərinsulu hissə) yataqları ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək lazım idi: ya ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin düzəlməsi üçün 30-40 il gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək. Bizim uzun illər gözləməyə daha nə vaxtımız, nə də imkanımız var idi. Respublikanın sosial-iqtisadi vəziyyəti çox gərginləşmişdi. Ölkənin neft-qaz sənayesi də dərin böhran içində idi. Buna görə də təcili tədbirlər görülməliydi. Digər tərəfdən, xarici neft şirkətləri ilə işbirliyinin qurulması zamanın tələbi idi və beynəlxalq praktika bunun üstünlüklərini geniş şəkildə nümayiş etdirirdi. Məsələ ondadır ki, dənizdə neft hasilatı riskli və böyük sərmayə qoyuluşu tələb edən işdir. Buna görə də dünyanın hətta ABŞ, Böyük Britaniya, Fransa kimi qüdrətli dövlətləri də bu məsələdə hasilatın pay bölgüsü prinsipi əsasında əlbir işləməyə, beləliklə də riskləri mümkün qədər azaltmağa çalışırlar. Azərbaycan da bu praktikadan səmərəli şəkildə istifadə edə bilərdi və etməli idi. Lakin xarici neft şirkətlərinin ölkəmizə sərmayə qoymasına qarşı çıxan qüvvələr də mövcud idi. Bu qüvvələr həm respublikanın özündə, həm də xaricdə fəaliyyət göstərirdilər. Buna görə də Azərbaycan Prezidenti neftçi mütəxəssisləri ətrafına toplayıb onlarla məsləhətləşdi. Prezidentin və neftçilərin fikirləri üst-üstə düşdü. Xarici neft şirkətlərini ölkəmizə dəvət etmək qərara alındı. Beləliklə də Azərbaycanın ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasına start verildi. Xarici şirkətlərlə danışıqlar bərpa olundu.

Danışıqlar 1994-cü ilin martında Bakıda başlandı, sonra Türkiyənin İstanbul şəhərində davam etdirildi. Danışıqların həlledici mərhələsi Amerikanın Hyuston şəhərində keçirildi. Buradakı danışıqlarda "Azəri" və "Çıraq" yataqları ilə yanaşı layihəyə "Günəşli" yatağının dərinsulu hissəsini də qoşmaq qərara alındı. Hyustonda 1994-cü il iyulun 21-dən sentyabrın 4-dək 45 gün ərzində aparılan danışıqlarda kəskin dramatik məqamlar az olmadı. Danışıqlar ağır gedirdi. Tərəflərin hər biri öz mövqeyini, öz mənafeyini qoruyurdu. Bəzən iş o yerə çatırdı ki, ya qarşı tərəf, ya da Azərbaycan tərəfi danışıqları tamamilə dayandırmaq fikrinə düşürdü. Bir dəfə qarşı tərəf şərt qoydu ki, Azərbaycan Rusiya ilə danışıb, Xəzər dənizinin hüquqi statusunu həll etməsə, danışıqlar davam etdirilməyəcək. Təsəvvür edirsinizmi, bu, nə demək idi? Məlum olduğu kimi, Rusiya ilə bu məsələ Prezident Heydər Əliyevin səyi nəticəsində yalnız 2002-ci ildə həll edildi. Deməli, 1994-cü ildə Amerikanın Hyuston şəhərində danışıqlar dayandırılsaydı, biz yeddi-səkkiz il gözləməli olacaqdıq. Nümayəndə heyətimizin üzvü, o vaxt Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyev qarşımıza qoyulmuş şərt barədə ulu öndərimizə məlumat verdi, onun göstərişi ilə Vaşinqtona uçdu, orada çox faydalı görüşlər keçirib, məsələni yoluna qoydu.

Nəzərə almaq lazımdır ki, o vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Lakin Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, alimlik elmi dərəcəsi almış və sonra da həmin institutda dərs demiş İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi.

Nəhayət, tərəflərin birgə işləmək, Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarından ədalətlə bəhrələnmək istəyi üstün gəldi. 1994-cü il sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində" Fərmanı elan edildi. 1994-cü il sentyabrın 20-də isə Bakıda dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsinə və Hasilatın Pay Bölgüsünə dair sonralar "Əsrin müqaviləsi" kimi tanınan məşhur Saziş imzalandı. Saziş Azərbaycan Respublikası Milli Məclisinin 15 noyabr 1994-cü il tarixli qərarı ilə təsdiq olundu.

***–Siz "Əsrin müqaviləsi"nin imzalanmasının Azərbaycan üçün əsas əhəmiyyətini nədə görürsünüz?***

–"Əsrin müqaviləsi"nin Azərbaycan üçün çox böyük əhəmiyyəti oldu. Mən yalnız bir neçə əsas məsələni qeyd etmək istəyirəm.

Siyasi cəhətdən müqavilənin əhəmiyyəti ondadır ki, dünyanın aparıcı dövlət və şirkətləri bir daha əmin oldular: Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Heç təsadüfi deyil ki, bu saziş imzalandıqdan sonra xarici şirkətlərlə daha 35 saziş bağlandı.

Müqavilənin iqtisadi əhəmiyyəti isə odur ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən – 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdı. Beləliklə, neft hasilatı 5,6 dəfə artdı.

Hazırda respublikada hasil edilən neftin və qazın əsas hissəsi "Azəri-Çıraq-Günəşli" yataqları hesabına əldə edilir. Artıq 20-ci ildir ki, "Azəri-Çıraq-Günəşli" layihəsinin iştirakçıları "mənfəət nefti"ndən gəlir əldə edirlər. 1999-cu ilədək neftin satışından əldə edilən gəlir sərmayə qoyuluşunun ödənilməsinə sərf olunurdusa, həmin ilin dekabrından Azərbaycanın "mənfəət nefti" xarici bazarlara çıxarılır. 2019-cu il sentyabrın 1-dək dünya bazarlarında Azərbaycanın payına düşən 287 milyon tona qədər "mənfəət nefti" satılmışdır ki, bu da AÇG üzrə indiyədək hasil edilmiş bütün neftin 58 faizi qədərdir. Mənfəət neftinin həcmi ilbəil artır.

"Əsrin müqaviləsi"nin ən böyük nailiyyətlərindən biri də odur ki, bu müqavilə yalnız AÇG yataqlarının işlənməsi ilə məhdudlaşmadı. Bu böyük layihənin törəmələri meydana gəldi ki, onların da birincisi Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri oldu. "Əsrin müqaviləsi"nin övladı olan bu kəmər 2005-ci il may ayının 28-də istismara verildi, 2006-cı il iyulun 13-də isə onun rəsmi açılışı oldu.

İstəyirəm biləsiniz ki, əgər "Əsrin müqaviləsi" ümummilli liderimiz Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı–Tbilisi–Ceyhan ixrac neft kəməri onun ikinci şah əsəri oldu.

Mən bir məsələni də qeyd etmək istəyirəm: vaxtilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri layihəsinin də əleyhdarları vardı. Amma indi baxın: 2019-cu il sentyabrın 1-dək dünya bazarlarına 554 milyon tona qədər Azərbaycan nefti çıxarılıb ki, bunun da 158 milyon tonu Bakı-Supsa, Bakı-Batum, Bakı–Novorossiysk kəmərləri və dəmir yolu ilə, 396 milyon tonu isə Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql edilib. Əgər bu kəmər olmasaydı, bu qədər nefti dünya bazarlarına biz necə aparıb çıxara bilərdik?!

***–"Əsrin müqaviləsi" 30 il müddətinə imzalanmışdı və 2024-cü ildə başa çatacaqdı. Lakin, bildiyimiz kimi, müqavilə 2050-ci ilə qədər uzadıldı. Bəs, bu qərarın qəbul olunması necə baş verdi?***

–"Əsrin müqaviləsi" başa çatdıqdan sonra nə olacaq?" - bu sual həm bizi, həm də xarici tərəfdaşlarımızı düşündürürdü. Qarşımızda bir neçə variant var idi.

Birinci variant BP şirkətinin operatorluq etdiyi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə əməkdaşlığı davam etdirmək idi. İkinci fikir o idi ki, bəlkə biz başqa xarici şirkətlərlə əməkdaşlığa gedək, onlarla müqavilə bağlayaq. Üçüncüsü də o idi ki, 2024-cü ildən sonra AÇG-ni özümüz işlədək.

Bu variantların hər biri dönə-dönə təhlil edildi. Sonda biz BP şirkəti və onun tərəfdaşları ilə işin təklif etdiyimiz kommersiya şərtləri əsasında davam etdirilməsini üstün tutduq. Ona görə ki, 1994-cü ildən AÇG-də işləyən BP və onun tərəfdaşları bu yataqlara, onların xüsusiyyətlərinə dərindən bələd olmuşdular. BP ilə məsləhətləşmələr, danışıqlar aparıldı. Onlar da əməkdaşlığı davam etdirməkdə maraqlı olduqlarını bildirdilər. Danışıqlarımız 2017-ci il sentyabrın 14-də Bakıdakı Heydər Əliyev Mərkəzində "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş müqavilənin imzalanması ilə nəticələndi. Bu kontrakt "Əsrin müqaviləsi"nin ömrünü 2050-ci ilə qədər uzatdı. Yeni müqavilədə Azərbaycan üçün olduqca sərfəli şərtlər müəyyən edilib. Bu barədə artıq hər kəs məlumatlıdır.

***–"Əsrin müqaviləsi"nin yubileyi və neftçilərin peşə bayramı günündə biz "Şahdəniz" epopeyasından da danışmaya bilmərik. Çünki "Əsrin müqaviləsi" olmasaydı, "Şahdəniz" də olmayacaqdı.***

–"Şahdəniz" ulu öndərimiz Heydər Əliyevin üçüncü şah əsəridir. "Əsrin müqaviləsi" Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, 1999-cu ilin iyununda ehtiyatları bu günə 1,2 trilyon kubmetr qazdan və 240 milyon ton kondensatdan ibarət olan nəhəng "Şahdəniz" yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycanı dünyaya böyük miqdarda qaz ixrac edən bir ölkə kimi tanıtdırdı.

İşlənmənin əvvəlindən "Şahdəniz" yatağından 110 milyard kubmetrdən çox qaz və 27 milyon tona qədər kondensat hasil edilib. 2019-cu il sentyabrın 1-dək "Şahdəniz-1" layihəsi üzrə Cənubi Qafqaz Boru Kəməri ilə Gürcüstana 8,7 milyard kubmetr və Türkiyəyə 63 milyard kubmetr qaz verilib.

"Şahdəniz-2" layihəsi çərçivəsində Azərbaycan qazının Avropaya nəql edilməsi və bu məqsədlə "Cənub Qaz Dəhlizi"nin çəkilməsi bizim müasir qaz epopeyamızın ən parlaq fəslidir. "Cənub Qaz Dəhlizi"nin açılışı 2018-ci il mayın 29-da Səngəçal terminalında oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə keçirilən təntənəli mərasimdəki nitqində dedi ki, "Cənub Qaz Dəhlizi" layihəsinin uğurlu icrası sayəsində ölkəmizin həyatında, neft-qaz sənayesinin inkişafında yeni dövr başlanır.

2018-ci il iyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Ukrayna, Serbiya, Şimali Kipr respublikaları rəhbərlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi"nin 2000 kilometrlik hissəsinin – TANAP adı ilə məşhur olan Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin təntənəli açılışı oldu. Beləliklə də, "Şahdəniz" qazının Cənubi Qafqaz ixrac boru kəməri və TANAP vasitəsilə Türkiyəyə nəqlinə başlandı. İndiyədək TANAP kəmərinə 2 milyard kubmetrdən çox "Şahdəniz" qazı vurulub.

2019-cu il iyulun 1-də isə TANAP Azərbaycan qazının Avropaya nəql edilməsi üçün tam hazır vəziyyətə gətirilib.

"Cənub Qaz Dəhlizi"nin növbəti mərhələsinin – TAP adı ilə tanınan Trans-Adriatik boru kəmərinin tikintisi də demək olar ki, tamamlanıb. 878 kilometr uzunluğunda kəmər Yunanıstan və Albaniyadan, Adriatik dənizinin dibindən keçəcək və İtaliya torpağında yenidən quruya çıxacaq, bu ölkələrə qaz nəql etməyə başlayacaq.

***–Xoşbəxt müəllim, bizimlə bu möhtəşəm tarixi bölüşdüyünüz üçün sizə minnətdarlığımızı bildiririk.***

– Bu tarixi hamının bilməsi vacibdir. Azərbaycan Respublikası və onun neft-qaz sənayesi "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 25 ildə əsrə bərabər bir inkişaf yolu keçib. Əminəm ki, bu böyük tərəqqi yolunda biz hələ çox qələbənin, yeni parlaq nailiyyətlərin şahidi olacağıq.

# "Əsrin müqaviləsi" – Azərbaycanın yüksəlişinin möhtəşəm təməli

**Sentyabrın 18-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Əsrin müqaviləsi" – Azərbaycanın yüksəlişinin möhtəşəm təməli" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətindən bəhs edib. O bildirib ki, Azərbaycanın çətin zamanlarında ümummilli lider Heydər Əliyev bu müqavilənin imzalanmasına nail oldu. Müharibə şəraitində olmasına baxmayaraq, Azərbaycan dünyanın enerji mərkəzinə çevrildi.**

Dünyanın nüfuzlu dövlətləri, nəhəng şirkətləri ölkəmizə cəlb olundu. Bu müqavilənin imzalanması Azərbaycan iqtisadiyyatının inkişafının əsasını qoydu. Azərbaycan nefti dünya bazarına çıxarıldı, ölkəyə valyuta kütləsi daxil oldu və bununla da inkişaf prosesləri başlandı. Beləliklə, 1994-cü il sentyabr ayının 20-də təkcə Azərbaycanın iqtisadiyyatı və enerji sahəsi üçün deyil, bütövlükdə qlobal enerji siyasətinin





həyata keçirilməsi baxımından böyük əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı.

Qeyd olunub ki, 25 il öncə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın güclü iqtisadi potensialının formalaşdırılmasında müstəsna rol oynamış, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə vermişdir. Bu müqavilənin imzalanması ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və çox böyük səyləri sayəsində mümkün oldu.

Bakıda Qərbin müxtəlif şirkətləri ilə bağlanmış neft müqaviləsi yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının müasir tarixinin şanlı səhifəsini açdı. "Əsrin kontraktı" adı ilə indi bütün dünyada tanınan bu müqavilənin imzalanması, onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və ulu öndər tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

Baş Nazirin müavini qeyd edib ki, XX əsrin son onilliyinin ən möhtəşəm layihələrindən biri məhz "Əsrin müqaviləsi"dir. "Bu müqavilənin imzalanması birmənalı şəkildə Heydər Əliyevin böyük dühasının və iradəsinin sayəsində mümkün olub. Ulu öndərin həyata keçirdiyi əzəmətli siyasətə Azərbaycanın neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi də daxil idi. O zaman Azərbaycanda vəziyyət tam sabitləşməmişdi, ölkə müharibə vəziyyətində idi və digər risk amilləri də mövcud idi. Bütün bunlara baxmayaraq, Heydər Əliyev Azərbaycan və bütövlükdə dünya enerji bazarı üçün əhəmiyyət kəsb edən bu layihəni işləyib, hazırlayıb həyata keçirə bildi.

YAP sədrinin müavini söyləyib ki, artıq 25 ildir "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadiyyatına və xalqın rifahına xidmət etməkdədir. Bu müqavilənin geosiyasi cəhətdən də böyük əhəmiyyəti var. Belə ki, Azərbaycanın həm regionda, həm də dünya birliyində siyasi mövqeyi, nüfuzunun möhkəmlənməsində bu layihənin uğurla həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atdığı addımların əhəmiyyətini vurğulayan Baş nazirin müavini neft strategiyasının bundan sonra da uzun illər Azərbaycan xalqına xidmət edəcəyini diqqətə çatdırıb.

Tədbirdə çıxış edən SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə "Əsrin müqaviləsi"nin əhəmiyyətindən danışaraq bildirib ki, ümummilli lider Heydər Əliyevin müəllifliyi ilə ərsəyə gələn bu müqavilə hesabına neft sənayesində böyük dəyişiklik baş verdi. Dənizdə neft quyularının işlənilməsi prosesi sürətləndi. Azərbaycan neftinin müasir üsullarla çıxarılmasına başlanıldı və dünya bazarında satışı təşkil olundu. Bir sözlə, ulu öndər Heydər Əliyevin şah əsəri olan "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın dirçəlişinə, iqtisadi inkişafına böyük yol açdı. X.Yusifzadə "Əsrin müqaviləsi"nin imzalanması üçün aparılan danışıqların uğurla başa çatmasında o zaman SOCAR-ın birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin xüsusi rolunu vurğulayıb. O deyib ki, Azərbaycanın böyük neft ehtiyatları mövcuddur. Bu gün yeni neft yataqlarının aşkar edilməsi və neft quyularının qazılması ilə bağlı işlər davam etdirilir. Bu gün Azərbaycanın 4 milyard ton təsdiq edilmiş neft ehtiyatları var. Bu günə qədər Azərbaycan xarici bazarlara 554 milyon ton neft çıxarıb.

SOCAR-ın birinci vitse-prezidenti vurğulayıb ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlar bloku istifadəyə verilən gündən bəri ümumilikdə 492 milyon ton neft hasil edilib. O, hazırda "Şahdəniz" layihəsi üzrə görülən işlər barədə də geniş məlumat verib.

Tədbirdə daha sonra Dövlət Neft Fondunun icraçı direktorunun müavini İsrafil Məmmədov, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, Milli Məclisin deputatları Tahir Mirkişili, Qüdrət Həsənquliyev, Fəzail Ağamalı və Fazil Mustafa çıxış ediblər. Çıxışlarda bildirilib ki, bu gün müstəqil Azərbaycanın iqtisadi müstəqilliyini, yüksək maliyyə təminatına malik ölkəyə çevrilməsini şərtləndirən bir sıra amilləri sadalamaq mümkündür ki, bunların sırasında da ölkəmizin uğurlu enerji siyasətinin önəmini xüsusi vurğulamaq lazımdır. Məlumdur ki, Azərbaycan tarixən dünyada "qara qızıl"la zəngin olan bir diyar kimi tanınıb. Ancaq məhz müstəqillik dövründə xalqımız respublikamızın malik olduğu təbii sərvətlərin əsl sahibinə çevrilib və onun bəhrəsini görməyə başlayıb.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən neft strategiyası Azərbaycanı lider ölkələr səviyyəsinə yüksəldib. Azərbaycan qısa müstəqillik tarixində özünün iqtisadi imkanlarını və milli gəlirlərini əhəmiyyətli dərəcədə artıraraq dünya miqyasında güclü dövlətə çevrilib.

O da vurğulanıb ki, Azərbaycan "qara qızıl"ın insan kapitalına çevrilməsi istiqamətində də inamlı addımlar atır. Respublikamızda sosial-iqtisadi infrastruktur quruculuğu geniş vüsət alıb. Eyni zamanda, özünün güclü iqtisadi potensialına, geniş maliyyə imkanlarına əsaslanan Azərbaycan ölkə vətəndaşlarının yüksək həyat səviyyəsini təmin etməyi hədəfləyən siyasət həyata keçirir.

***AZƏRTAC***



# "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycan sürətli inkişaf mərhələsinə daxil oldu

(əvvəli 1-ci səhifədə)

Ölkə iqtisadiyyatının digər sahələrinə sərmayələr axını təmin ediləcəkdir. Azərbaycan yeni, müasir texnologiyalar əldə edəcəkdir. Xarici şirkətlərin ödədiyi vergilərdən büdcəyə mədaxil xeyli artacaqdır. Müxtəlif sənaye və xidmət sahələrində minlərlə yeni iş yeri açılacaqdır. Azərbaycan neft satışından milyardlarla dollar götürəcəkdir ki, bu da geniş sosial proqramları həyata keçirməyə, əməkhaqqını və pensiyaları artırmağa, imkansız ailələrə, müharibə əlillərinə və qaçqınlara daha da çox kömək etməyə imkan verəcəkdir. Nəticədə, güclü iqtisadi potensial yaradılacaq və bu da ölkənin müstəqilliyini bundan sonra da qoruyub möhkəmlətməyə imkan verəcəkdir".

Beləliklə, "Əsrin müqaviləsi" ilə müstəqilliyini bir daha bütün dünyaya nümayiş etdirən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu sübuta yetirdi. Sözügedən müqavilənin imzalanmasına həsr olunan təntənəli mərasimdə çıxış edərkən ulu öndər Heydər Əliyev bu barədə deyib: "Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu bütün dünyaya nümayiş etdirdik. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil olduğunu, xalqımızın öz sərvətinə sahib olduğunu bütün dünyaya nümayiş etdirdik. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş ölkələri, onların ən böyük şirkətləri arasında əlaqələr yaratdıq. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrin Azərbaycana investisiya qoyması üçün böyük yol açdıq".

Yeri gəlmişkən, Hasilatın pay bölgüsü haqqında Saziş (HPBS) keçmiş Sovet İttifaqının hər hansı bir ölkəsinə Qərb transmilli şirkətləri tərəfindən qoyulan ilk böyük investisiya olub və "Əsrin müqaviləsi" kimi tanınır.

"Azəri"-"Çıraq"-"Dərinsulu Günəşli" (AÇG) neft yatağı Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr şərqdə dənizdə yerləşir. AÇG meqastrukturu Xəzər dənizinin altında 2000-3500 metr dərinlikdə yerləşən Balaxanı VIII və X, həmçinin yuxarı və aşağı Fasilə lay dəstələrini əhatə edir. Cari ilin birinci yarısının sonuna ümumi investisiya həcmi 36 milyard dollardan çox olub. İndiyədək AÇG yatağından ümumilikdə 3,6 milyard bareldən çox neft hasil edilib.

Yatağın işlənməsi bir neçə mərhələdə həyata keçirilib: "Çıraq" yatağından hasilat İlkin Neft Layihəsi (İNL) çərçivəsində 1997-ci ildən başlanıb. Bunun ardınca "Azəri" Layihəsi Mərhələ 1 – "Mərkəzi Azəri" gəlir. Orada hasilat 2005-ci ilin əvvəlində başlanıb. Sonrakı 2-ci faza "Qərbi Azəri" və "Şərqi Azəri" platformalarını əhatə edib. Orada hasilat müvafiq olaraq 2005-ci ilin dekabrında və 2006-ci ilin axırlarında başlanıb. AÇG yatağının işlənməsinin növbəti 3-cü fazası çərçivəsində "Dərinsulu Günəşli" platformasından hasilat 2008-ci ilin aprelində başlanıb. Həmin fazalardan sonra "Qərbi Çıraq" platformasını əhatə edən "Çıraq Neft Layihəsi" davam edib. Həmin platformadan ilk neft 28 yanvar 2014-cü il tarixində əldə olunub. AÇG yatağının işlənməsi ilə əlaqədar ən sonuncu layihə "Azəri Mərkəzi Şərqi" layihəsidir. Bu layihəyə 2019-cu ildə sanksiya verilib və o, bir hasilat platformasının tikintisindən ibarətdir. "Azəri Mərkəzi Şərqi" layihəsi hazırda icra mərhələsindədir və orada ilk neft hasilatı 2023-cü ildə gözlənilir.

Hazırda AÇG yatağından gündə təxminən 550 min barel neft hasil olunur. Həmin neft dünya bazarlarına əsasən Bakı-Tbilisi-Ceyhan (BTC) və Qərb İxrac Boru Kəməri (Bakı-Supsa) marşrutları ilə ixrac olunur.

AÇG yatağının işlənməsinin böyük uğurunu nəzərə alaraq, Azərbaycan Hökuməti və AÇG tərəfdaşları düzəliş və yenidən təsdiq edilən sazişi 2017-ci il sentyabr ayının 14-də imzalayaraq sözügedən sazişinin müddətini əsrin ortalarına qədər uzadıblar.

Yeni saziş hökumətə və investorlara AÇG-nin Azərbaycan və şirkətlər üçün iqtisadi səmərəliliyini növbəti 30 il ərzində maksimum dərəcədə artırmağa və bu dünya səviyyəli yatağa 40 milyard dollardan çox kapital qoymağa imkan verir. Saziş növbəti otuz ildə AÇG üzrə iştirakçı şirkətlərin AÇG yatağının uzunmüddətli işlənmə potensialını yeni investisiyalar, yeni texnologiyalar və yataqdan hasilatı maksimuma çatdırmaq üçün yeni birgə səylər hesabına açmaq üçün Azərbaycan Hökuməti ilə əməkdaşlığı davam etdirəcəklərinə zəmanət verir.

AÇG-də böyük ehtiyatlar mövcuddur və burada hələ görüləcək çox iş var. Bu vaxtadək AÇG-dən hasil edilən 3,6 milyard barreldən çox neft dünya bazarına əsasən Bakı-Tbilisi-Ceyhan (BTC) və Qərb Marşrutu İxrac Boru Kəməri vasitəsilə daşınıb. 1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Bu gün isə "Azəri-Çıraq-Günəşli"də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı var. Lakin bu hələ son rəqəm deyil. Yataqların ehtiyatının artması ehtimalı var və yeni sazişin icrası müddətində bu rəqəm daha da artacaq.

Cari ilin birinci yarısında AÇG üzrə fəaliyyətlərə təqribən 272 milyon dollar əməliyyat və 657 milyon dollar isə əsaslı məsrəflər xərclənib. Yarım ildə AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib, ümumi hasilat gündəlik orta hesabla 542 min barrel və ya ümumilikdə təqribən 98 milyon barrel, yəni 13 milyon ton olub. İyun ayının sonunda AÇG-də ümumilikdə 124 neft hasilat, 44 su və 7 qaz injektor quyusu istismarda olub. İki rüb ərzində AÇG-də 7 neft hasilat quyusu qazılıb. Hazırda AÇG-də 8 platforma - 6 hasilat platforması və 2 texnoloji platforma var. Bu platformalardan neft və qaz dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalına nəql olunur.

Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri AÇG layihəsinin həyata keçirilməsinin vacib və ayrılmaz tərkib hissəsidir. Hazırda AÇG yatağından hasil olunan həcmin böyük hissəsi dünya bazarlarına bu boru kəməri vasitəsilə çatdırılır. BTC, üç ölkənin ərazisindən keçərək 1 768 kilometr məsafəyə uzanan dünya səviyyəli bir boru kəməridir. O, Azərbaycandan Gürcüstana keçərək Aralıq dənizinə çatır. Orada Türkiyənin Ceyhan şəhərində yeni bir dəniz terminalı inşa edilib. BTC kəməri beynəlxalq bazarlara təhlükəsiz və etibarlı çıxış təmin edən bir marşrutdur.

BTC boru kəməri tranzit əraziyə malik ölkələr üçün xeyli gəlir gətirib və Azərbaycan, Gürcüstan, Türkiyə və Qərb arasında iqtisadi və siyasi əlaqələrin güclənməsinə kömək edib. BTC kəmərinin ötürücülük qabiliyyəti gündə bir milyon barel təşkil edən layihə gücündən hazırda gündə 1,2 milyon barelə qədər artırılıb. Bu günə qədər həmin boru kəməri vasitəsilə təxminən 3,3 milyard barel (təxminən 440 milyon ton) xam neft Xəzərdən Aralıq dənizinə təhlükəsiz və etibarlı şəkildə nəql olunub.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***



**Sabah Azərbaycan dövlətinin çağdaş tarixində olduqca mühüm əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi"nin imzalanmasının 25 ili tamam olur. Bu mühüm hadisə ilə bağlı Milli Məclisin deputatı Tahir Rzayev öz fikir və düşüncələrini qəzetimizin oxucuları ilə bölüşərkən demişdir:**

# Milli dövlətçilik tariximizin ən parlaq səhifələrindən biri

– Hesab edirəm ki, "Əsrin müqaviləsi" milli dövlətçilik tariximizin ən parlaq səhifələrindən biridir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan və sonrakı illər ərzində böyük uğurla həyata keçirilən bu tarixi müqavilə gənc, müstəqil Azərbaycanın sürətli inkişafına böyük təkan vermişdir.

Bəllidir ki, hər bir millətin ən böyük sərvəti onun istiqlalı, siyasi müstəqilliyidir. Lakin tarix göstərir ki, gənc, müstəqil dövlətlər üçün təkcə siyasi müstəqillik əldə etmək kifayət etmir. Belə ki, hər bir gənc dövlətin güclənməsi üçün iqtisadi müstəqilliyin təmin olunması hava-su kimi zəruridir. Dahi siyasətçi Heydər Əliyev bu vacib amili hər zaman diqqətdə saxlayırdı. Əmin idi ki, "Əsrin müqaviləsi" müstəqil Azərbaycanın siyasi süverenliyi ilə yanaşı, iqtisadi müstəqilliyini də gücləndirəcək.

Ümummilli lider Azərbaycanı yüksək tərəqqi etmiş, əhalisi firavan yaşayan azad bir dövlət kimi görməyi arzulayırdı. 1994-cü ildə gənc Azərbaycan dövləti üçün olduqca çətin, taleyüklü bir dönəmdə Heydər Əliyevin titanik səyləri nəticəsində dünyanın iri şirkətləri ilə neft müqaviləsi imzalandı.

Bu gün xoşbəxtlikdən ulu öndərin Azərbaycan xalqının parlaq gələcəyinə xidmət edən müdrik siyasi kursu Azərbaycan dövlətinin, xalqımızın hazırkı lideri, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Reallıq budur ki, Azərbaycan hazırda təkcə regionda deyil, eləcə də bütün dünyada sürətlə inkişaf edən bir dövlətə çevrilib.

Sonda bir daha vurğulamaq istəyirəm ki, Bakıda 25 il bundan əvvəl bağlanan "Əsrin müqaviləsi" bundan sonra da neçə-neçə onillər, qərinələr boyu Azərbaycan xalqının rifahına və istiqlalına xidmət edəcək.

***Söhbəti qələmə aldı:***
***M.HACIXANLI,***
***"Xalq qəzeti"***

# "Əsrin müqaviləsi" dövlət müstəqilliyimizin möhkəmlənməsinə, ölkənin qüdrətlənməsinə xidmət edir

**Xalqımız ulu öndər Heydər Əliyevin işləyib hazırladığı, dünyanın aparıcı neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi"nin 25 illiyini qeyd edir. Çəkinmədən deyə bilərik ki, 1994-cü ildən sonra sentyabrın 20- si bizim üçün təkcə əlamətdar gün yox, məhz bayram günlərimizdən biri kimi əzizdir. Çünki həmin tarixi sazişdən sonra dünya ölkələrinin və xüsusən, qlobal neft şirkətlərinin Azərbaycana olan marağı gündən-günə artmışdır. Danılmaz faktdır ki, Azərbaycanın dünyanın nüfuzlu beynəlxalq neft şirkətləri ilə imzaladığı 30-dan çox müqavilənin hamısı məhz "Əsrin müqaviləsi"nin davamı olaraq ərsəyə gəlib.**



Həmin neft sazişinin ölkəmiz və xalqımız üçün olan səmərəsinin miqyası barədə təsəvvür yaratmaq üçün bir faktı yada salmaq istərdik. Belə ki, dövlət başçımız bir nitqində xatırlatdı ki, Azərbaycan iqtisadiyyatına 263 milyard dollardan çox investisiya yatırılıb və bu qədər vəsaitin 50 faizdən çoxu xarici investisiyalardır. Əhalisinin sayı bu günlərdə 10 milyonu ötmüş, coğrafi cəhətdən o qədər də böyük ölkə olmayan Azərbaycanın iqtisadiyyatına bu qədər xarici investisiya gətirilibsə, həqiqətən, böyük uğurdur.

Fikrimcə, bu, "Əsrin müqaviləsi"nin xalqımıza bəxş etdiyi səmərənin cüzi bir hissəsidir. Həmin sazişin ən böyük səmərəsi isə, dövlət müstəqilliyimizin qorunub saxlanılması olmuşdur. Heç kəsə sirr deyil ki, Azərbaycanın dövlət müstəqilliyini istəməyən qüvvələr 1991-ci ildə bərpa etdiyimiz müstəqilliyə də 1918-ci ildəki suveren dövlətimizin taleyini yaşatmaq istəyirdilər. Heydər Əliyev siyasi dühası həmin qara qüvvələrin istəyini məharətlə gözlərində qoydu. Belə ki, "Əsrin müqaviləsi" dünyanın ən güclü dövlətlərini Azərbaycanın dostuna çevirdi. Nəticədə biz öz dövlət müstəqilliyimizi qoruya bildik. Məhz ona görə də biz bu 25 illiyi bilavasitə bayram kimi qeyd etməliyik.

***Telman HAQVERDİYEV,***
***fəlsəfə elmləri namizədi***

# "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi cəhətdən inkişafında mühüm rol oynadı

**Sabah Azərbaycanın 1994-cü il sentyabrın 20-də xarici neft şirkətləri ilə imzaladığı ilk neft kontraktının – "Əsrin müqaviləsi"nin 25 ili tamam olur. Biz, yaşlı nəsil yaxşı xatırlayır ki, dünyaya səs salmış bu müqavilə Azərbaycan xalqının ümummilli lideri, uzaqgörən siyasi xadim Heydər Əliyevin təşəbbüsü ilə reallaşdı.**



Heç zaman unuda bilmərik ki, Heydər Əliyev xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdana qədər Azərbaycanda bütün iqtisadiyyat, demək olar ki, dağılmış, qonşu dövlətlərlə iqtisadi-ticari əlaqələr qırılmış, ölkə iqtisadi böhran həddinə gəlib çatmışdı. Ölkəni bu vəziyyətdən çıxarmaq missiyası böyük siyasətçi Heydər Əliyevin üzərinə düşürdü. O, təcili surətdə iqtisadiyyatın bərpası istiqamətində ardıcıl tədbirlər həyata keçirməyə başladı. "Əsrin müqaviləsi"nin imzalanması bu sahədə çox böyük hadisə idi və ulu öndər bu məsələni reallaşdırmaqla Azərbaycan neftinin birbaşa dünya bazarına çıxarılmasının əsasını qoydu. Ümummilli liderin uzaqgörən səyləri nəticəsində bir neçə ildən sonra həmin müqavilə çərçivəsində Azərbaycana xarici investisiya və neft pulları daxil olmağa başladı ki, bu vəsait Heydər Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın inkişafına, əhalinin illərdən bəri yığılıb qalmış sosial problemlərinin həllinə yönəldildi.

Şübhəsiz ki, ulu öndər çox düzgün qərar qəbul etmişdi: "Əsrin müqaviləsi" Azərbaycanın təkcə iqtisadi inkişafını təmin etmədi, həm də ölkəmizin müstəqilliyinin möhkəmlənməsində mühüm rol oynadı. O zamanlar bəzi xarici dairələr buna mane olmağa çalışsalar da, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin dönməz siyasi iradə nümayiş etdirməsi məsələnin uğurla başa çatmasını təmin etdi. Bu gün də Azərbaycan "Əsrin müqaviləsi"nin bəhrələrini görür və hələ uzun illər bu müqavilə və ondan sonra Prezident İlham Əliyev tərəfindən reallaşdırılmış digər neft-qaz layihələri ölkəmizin sosial-iqtisadi inkişafını təmin edəcək.

***Seyfəddin ƏLİYEV,***
***YAP Masallı rayon təşkilatının sədri***

## Avropa İttifaqı və BMT İnkişaf Proqramı Azərbaycanda gender bərabərliyi sahəsində layihəni davam etdirir



**Azərbaycanda Avropa İttifaqı (Aİ) və BMT İnkişaf Proqramı tərəfindən maliyyələşən gender bərabərliyi sahəsində iki illik layihə davam edir. Layihənin dəyəri 1,111 milyon avrodur.**

Layihənin məqsədi dayanıqlı inkişaf sahəsində məqsədlərə nail olmaq üçün milli gündəliyin reallaşdırılmasında vətəndaş cəmiyyəti təşkilatlarının fəal iştirakına kömək etmək, eləcə də gender bərabərliyinin möhkəmləndirilməsi və qadınların hüquq və imkanlarının genişləndirilməsidir.

Sözügedən layihənin ofisi Bakıda fəaliyyət göstərir, layihə isə regionlarda–Lənkəran, İsmayıllı, Şəki, Zaqatala, Balakən, Naxçıvan, Quba, Xaçmaz, Mingəçevir, Şirvan, Bərdə, Yevlax və digər bölgələrdə reallaşdırılır.

*"Xalq qəzeti"*



**Sentyabrın 17-də Bakının Qaradağ rayonunda yerləşən SOCAR-ın Tullantıların İdarə Edilməsi Mərkəzində (TİEM) SOCAR, BP və BMT-nin İnkişaf Proqramının yeni birgə layihəsinə start verilib. Layihəyə əsasən, uzun illər sənaye zonası olan, neft sənaye mərkəzi kimi formalaşmış ərazinin ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədi ilə 25 hektar ərazidə yeni meşə massivi salınacaq.**

## SOCAR və tərəfdaşları Qaradağda meşə massivinin salınmasına başlamışlar

Tədbirdə SOCAR-ın prezidenti Rövnəq Abdullayev, BP-nin Azərbaycan-Gürcüstan-Türkiyə üzrə regional prezidenti Qəri Counz, BMT İnkişaf Proqramının Azərbaycan ofisinin rəhbəri Alessandro Frakassetti və layihə rəhbəri Rəfiqə Hüseynzadə iştirak etmişlər.

SOCAR-dan aldığımız məlumatda bildirilir ki, tədbir iştirakçıları ilk olaraq ərazidə yerləşən Tulantıların İdarə Edilməsi Mərkəzinin işi ilə tanış olmuşlar. Mərkəz barədə qonaqlara ətraflı məlumat verən SOCAR-ın ekologiya üzrə vitse-prezidenti xanım Rəfiqə Hüseynzadə qeyd etmişdir ki, TİEM MDB və Xəzər regionunda neft sənayesində formalaşan istehsalat tullantılarının emalı və idarə edilməsi üzrə ilk və yeganə mərkəzdir. 2016-cı ildə TİEM yenidən qurulduqdan sonra burada qazma şlamlarının emalına başlanmışdır. Bildirilmişdir ki, hazırda 150 nəfər əməkdaşı olan mərkəzin illik istehsalat gücü 100 min tondur. Emaldan sonra qazma şlamının tərkibində olan qiymətli kimyəvi reagent yüksək keyfiyyətdə bərpa olunaraq təkrar qazma prosesində istifadə edilir. Həmçinin, ərazidə quraşdırılmış su təmizləyici qurğular vasitəsi ilə mərkəzdə formalaşan istehsalat suları texniki su səviyyəsinədək təmizlənərək salınacaq yaşıllıqların suvarılmasında istifadə olunacaqdır.

Qonaqlara yeni meşə massivinin layihəsi haqqında məlumat verilmişdir. Sonra ərazidə tədbir iştirakçılarının tərəfindən 400 eldar şamı əkilmişdir. Ümumilikdə isə SOCAR, BP və BMT İP-nin dəstəyi ilə TİEM ətrafında 30 min ağac və kol bitkilərinin əkilməsi nəzərdə tutulur.

*"Xalq qəzeti"*

## Mariya Stadnik ikiqat dünya çempionu oldu



**Qazaxıstanın paytaxtı Nur-Sultanda güləş üzrə dünya çempionatı davam edir. Yarışların dördüncü günündə qadın güləşi üzrə 50, 53, 55 və 72 kiloqram çəkidə mübarizəyə start verilib.**

Mariya Stadnik təsnifat mərhələsində Nigeriya güləşçisinə ilk hissədə qalib gəlib. Yığmamızın lideri növbəti görüşdə Hindistan təmsilçisindən güclü olub. 1/4 finalda Rusiya idmançısına göz açmağa imkan verməyən Stadnik ilk hissədə qələbəni təmin edərək adını yarımfinala yazdırmaqla yanaşı, Olimpiadaya lisenziya qazanan ilk güləşçimiz olub.

Yarımfinalda çinli rəqibiylə gərgin keçən mübarizədən də qalib ayrılan Mariya 5-ci dəfə dünya çempionatının finalına yüksəlib. Stadnik həlledici qarşılaşmada ötən il Avropa çempionatının finalında yarım dəqiqə ərzində məğlub etdiyi Rumıniya güləşçisiylə üz-üzə gəlib. Tarix təkrarlanıb və növbəti dəfə rəqibinə tam üstünlüklə qalib gələn Mariya dünya çempionu adını qazanıb.

**"Xalq qəzeti"**

## İsrail gimnastı: Milli Gimnastika Arenasında gözəl şərait yaradılıb

**İsrail gimnastı Yuliana Telegina bədii gimnastika üzrə dünya çempionatının təsnifat yarışlarında çıxışından sonra bildirib ki, özümü ələ ala və proqramımı yaxşı icra edə bildiyim üçün məmnunam.**

Azarkeşlərin dəstəyinin çıxışına kömək etdiyini vurğulayan gimnast deyib ki, Milli Gimnastika Arenasında gözəl şərait yaradılıb: "Burada məşqlər və uğurlu çıxış üçün lazım olan hər şey var. Mənim yarışlara hazırlıq üçün kifayət qədər vaxtım var idi, çünki mən çempionatın başlamasına dörd gün qalmış Bakıya gəlmişdim".

Qeyd edək ki, Milli Gimnastika Arenasında keçirilən dünya çempionatına Azərbaycan 9 gimnastla qatılıb. 61 ölkədən 300-dən artıq gimnast çempionatda 9 dəst medal uğrunda mübarizə aparacaq.

Dünya çempionatı sentyabrın 22-dək davam edəcək.




**2019-cu ilin yanvar-avqust aylarında İstanbul və Ankaradan Azərbaycana ixrac 630,854 milyon dollar təşkil edib. Bu barədə Türkiyə İxracatçılar Birliyindən (TİM) bildiriblər.**

## İstanbul və Ankaradan Azərbaycana ixrac 630 milyon dolları keçib



Həmin müddət ərzində Ankaradan Azərbaycana ixrac 2018-ci ilin yanvar-avqust ayları ilə müqayisədə 16,91 faiz artaraq 88,849 milyon dollar təşkil edib.

Eyni zamanda, İstanbuldan Azərbaycana ixrac 8,88 faiz artaraq 542,005 milyon dollara bərabər olub.

Avqust ayında Ankaradan Azərbaycana ixrac 2018-ci ilin avqustu ilə müqayisədə 18,78 faiz azalaraq 7,76 milyon dollar, İstanbuldan Azərbaycana ixrac 46,47 faiz artaraq 89,99 milyon dollar təşkil edib.

Qeyd edək ki, 2019-cu ilin avqustunda Türkiyədən Azərbaycana ixrac ötən ilin avqustu ilə müqayisədə 23,68 faiz artaraq 138,2 milyon dollara bərabər olub.

## Rusiya peyki Çinin kosmik stansiyaları üçün Aya enmə yerlərini seçəcək



**Rusiya orbital aparatı "Luna-26" Çin stansiyalarının Ay səthində gələcək eniş yerlərini seçəcək.**

İki ölkə arasında razılaşmalar çərçivəsində Çin stansiyaları üçün mümkün eniş sahələrinin Rusiya orbital aparatı tərəfindən ətraflı araşdırılması mümkün olacaq.

Bundan əlavə, əldə olunan razılaşmalar çərçivəsində Rusiya və Çin bir-birinin Ay aparatlarına - ("Luna-26" və "Chang'e-7") elmi avadanlıqların quraşdırılması imkanlarını nəzərdən keçirəcəklər.

*"Xalq qəzeti"*

# Ermənistan əhalisi Paşinyanın qeyri-real vədlərinə inanmır

**Ermənistanda sosial-iqtisadi vəziyyətin, işsizlik və yoxsulluğun acınacaqlı həddə olması artıq ölkə KİV-i tərəfindən də təsdiqlənir. Xüsusən baş nazir Nikol Paşinyanın hakimiyyəti zəbt etməsindən sonra vəziyyət daha da pisləşməkdədir. Paşinyan küçə və meydanlarda xalqa bolluca vədlər vermişdi. Təxminən bir il ərzində erməni xalqı onun bütün vədlərinin blef olduğunu gördü və artıq ondan üz döndərməkdədir.**



Qeyd etməliyik ki, bu gün Ermənistanın iqtisadi durumu ağırdır, maliyyə çatışmazlığı yüksək həddədir, işsizliyin həcmi artmaqdadır. Müstəqilliyin ilk illərində işsizlik səviyyəsi tək rəqəmli ədədlə ifadə olunsa da, sonrakı dövrdə artmış, 2018-ci ildə 17,71 faiz olmuşdur. Amma real rəqəmlər, təbii ki, daha böyükdür. 2016-cı ildə ölkə parlamentində qeyri-rəsmi işsizlik səviyyəsinin 35 faiz olduğunu və 1 milyondan artıq vətəndaşın yoxsulluq səviyyəsindən aşağı həddə yaşadığı bildirilmişdi. Hazırda Ermənistanda rəsmi statistikaya əsasən, əhalinin dörddə biri yoxsulluq səviyyəsindən aşağı vəziyyətdə yaşamaqdadır. Ölkənin ümumi dövlət borcu və maliyyə resurslarına ehtiyacı sürətlə artmaqdadır. Miqrasiya dalğası günü-gündən genişlənir. Asiya İnkişaf Bankı Ermənistandakı yoxsulluq səviyyəsini Əfqanıstan və bir sıra geridə qalmış ölkələrlə müqayisə edir. Beynəlxalq Valyuta Fondu isə ölkənin dövlət borcunun artacağını proqnozlaşdırır.

Belə ağır bir durumda Nikol Paşinyan xalqa növbəti yalanını – "Ermənistan 2050 – Strateji İnkişaf Sənədi"ni sırımağa çalışır. Hazırda sənəd ölkədə ciddi müzakirə olunmaqdadır. Mütəxəssislər "strateji sənəd"də verilən vədlərin yenə də reallıqdan uzaq olduğunu qeyd edirlər. Elə beynəlxalq təşkilatlar tərəfindən verilən proqnozlar da bu cürdür. Ümumi fikir belədir ki, "Ermənistan 2050 – Strateji İnkişaf Sənədi"ndə ölkənin maliyyə vəziyyəti ilə bağlı qeyri-real hədəflər müəyyən olunmuşdur. Bütövlükdə, sənəd qeyri-real hesablamalara əsasən tərtib edilmişdir.

İqtisadçılar bəyan edirlər ki, hər il beynəlxalq ictimaiyyətdən maliyyə dəstəyi uman, bu məqsədlə xarici ölkələrdə xeyriyyə marafonları keçirən bir dövlətin 30 ildən sonra məvacibləri 7 dəfədən çox artıracağı ilə bağlı verdiyi vədlər, əlbəttə, real vəziyyətlə əlaqəsi olmayan hədəflər kimi qiymətləndilir. Onların fikrincə, Ermənistan əhalisinin əsas yaşayış və maliyyə mənbəyi ölkə xaricində yaşayan ermənilərdir. Erməni lobbisinin bir əli daim ölkənin üzərindədir. Xarici ölkələrdə çalışan miqrantlarların Ermənistana yolladıqları maliyyə vəsaitləri onların ailələrinin yoxsulluq səviyyəsi ilə nisbi mübarizə aparmasına güclə bəs edir.

Dünya Bankının hesabatına əsasən, 2000-2018-ci illər ərzində Ermənistana göndərilən maliyyə vəsaitləri artan xətt üzrə inkişaf edib. Vəsaitin böyük bir hissəsi (təxminən 70 faizi) Rusiyada işləyən ermənilər tərəfindən göndərilir. Məhz ona görədir ki, iqtisadçılar xarici ianələr, diaspor və miqrantların ölkəyə köçürdükləri maliyyə vəsaitləri üzərində qurulan primitiv iqtisadi modelin "Ermənistan 2050 - Strateji İnkişaf Sənədi"ndə göstərilən hədəflərə çatmaq potensialına malik olmadığını bildirirlər.

Elə Ermənistanın "Yerkramas" informasiya agentliyi dünənki buraxılışında xalqa "Hökumətin ezamiyyət xərcləri üçün pulu yoxdur" sərlövhəli məlumatını təqdim edir. Məlumatda bildirilir ki, hökumət ezamiyyət üçün nəzərdə tutulmuş xərcləri artırmaq haqqında qərar qəbul edib. Hökumətin saytında dərc edilmiş layihəyə əsasən, illik ezamiyyət xərclərini 310 milyon dram (600 min dollardan çox) artırmaq nəzərdə tutulur. Bu vəsaitin 60 milyon dramı xarici nümayəndələrin qəbuluna, 250 milyon dramı isə rəsmi xarici ezamiyyətlərə ayrılacaq.

Xəbərin sonunda informasiya agentliyi qeyd edir ki, 2019-cu ilin dövlət büdcəsində rəsmi xarici ezamiyyətlər üçün 350 milyon dram nəzərdə tutulur. Amma hökumətin bu məbləği haradan alacağı məlum deyil.

Əlavə edək ki, işğal olunmuş Azərbaycan ərazilərini azad etməyənə qədər Ermənistanın heç bir inkişaf perspektivi yoxdur. Azərbaycanın bu ölkəni beynəlxalq və regional layihələrdən təcridetmə siyasəti əvvəlki iqtidarlar kimi, Paşinyan hakimiyyətini də sərt reallıqlar qarşısında qoyur. Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ - Ermənistandır... Vəssalam!" açıqlaması və Ermənistanla Dağlıq Qarabağın birləşdirilməsini nəzərdə tutaraq "miatsum" deməsi də Ermənistan vətəndaşlarını yenidən hərbi ritorika ilə, qondarma "Böyük Ermənistan" vədləri ilə aldatmaq niyyətindən irəli gəlir. Birmənalı şəkildə aydındır ki, Paşinyanın həm hərbi, həm siyasi, həm də iqtisadi proqramları reallığa deyil, populizmə, kütlənin emosiyalarını oxşamağa hesablanıb. Əhali artıq bu yalançı vədlərə qəti şəkildə inanmır. Ona görə də ölkədə narazılıq pik həddə çatıb.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

# Bakıda Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub





***Sentyabrın 18-də Bakıda Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub.***

Tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, dövlət qurumlarının və ictimai təşkilatların nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, musiqisevərlər iştirak ediblər.

Gecədə Xalq artisti, bədii rəhbər və baş dirijor Rauf Abdullayevin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və solist, Rusiyanın violin ifaçısı, P.İ.Çaykovski adına XVI beynəlxalq müsabiqənin qalibi Sergey Doqadin çıxış ediblər. Proqramda Üzeyir Hacıbəylinin "Koroğlu" operasına uvertüra, Yan Sibeliusun Skripka və orkestr üçün konserti və görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, akademik Arif Məlikovun əziz xatirəsinə müəllifin 6 saylı simfoniyası səsləndirilib.

Qeyd edək ki, Üzeyir Hacıbəyli göstərdiyi xidmətlərlə öz adını Azərbaycanın musiqi tarixinə əbədi olaraq həkk edib. Dahi bəstəkarın doğum gününün musiqi bayramı kimi qeyd edilməsi ənənəsi ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli liderin 1995-ci ildə - bəstəkarın 110 illik yubileyi münasibətilə imzaladığı fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Böyük bəstəkar Azərbaycan xalqının tarixində silinməz iz qoyub. Təsadüfi deyil ki, Üzeyir bəy həm də ötən il 100 illiyini təntənə ilə qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-mədəni həyatında yaxından iştirak etmiş böyük şəxsiyyətlərimizdəndir.

Bu gün də Üzeyir bəy ənənələri davam edir. Milli Musiqi Günü artıq 10 ildir ki, təkcə musiqi bayramı olaraq deyil, həm də daha geniş miqyasda beynəlxalq musiqi festivalı kimi musiqisevərlərin görüşünə gəlir. Azərbaycan musiqisi bu gün beynəlxalq aləmdə təbliğ edilir. Musiqi kollektivlərimiz beynəlxalq müsabiqələrdə çıxış edərək Azərbaycan xalqının musiqi yaradıcılığı qüdrətini nümayiş etdirir. Heydər Əliyev Fondunun təşkilatçılığı, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan musiqisinin tarixi ənənələri UNESKO tərəfindən qorunmaqdadır. Bu gün musiqi ictimaiyyətimizin nümayəndələri Fəxri xiyabanı ziyarət edərək Üzeyir Hacıbəyli, eyni zamanda, Müslüm Maqomayev və digər görkəmli bəstəkarlarımızın xatirəsini yad etdi. Musiqi günü münasibətilə Azərbaycanın bütün bölgələrində tədbirlər həyata keçirilir. Bundan əlavə, builki XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində paytaxtın bütün mədəniyyət müəssisələrində musiqi bayramı əhvalı hökm sürəcək, tanınmış musiqiçilərin əsərləri səslənəcək.

Üzeyir Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalında Azərbaycan, ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan, Ukrayna və Gürcüstandan tanınmış musiqi kollektivləri çıxış edəcək. Festival günlərində paytaxtın bir sıra konsert salonlarında – Beynəlxalq Muğam Mərkəzində, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında, Azərbaycan Bəstəkarlar İttifaqında, Bakı Musiqi Akademiyasında, Heydər Əliyev Sarayında, Azərbaycan Dövlət Akademik Musiqili Teatrında ümumilikdə 40-a yaxın tədbirin keçirilməsi nəzərdə tutulur. Eyni zamanda, festival çərçivəsində sentyabrın 25-də Ağcabədi rayon "Qarabağ" Muğam Mərkəzində Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı (bədii rəhbər və baş dirijor Ağaverdi Paşayev) və solistlərin iştirakı ilə konsert təşkil olunacaq. Həmin gün Gəncə Dövlət Filarmoniyasında Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının truppasının iştirakı və Sevil Hacıyevanın dirijorluğu ilə Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" ikipərdəli musiqili komediyası nümayiş olunacaq.

Festival günlərində Xalq artisti, bəstəkar Aygün Səmədzadənin "Azərbaycan 100 mahnıda" layihəsinin, Azərbaycan Bəstəkarlar İttifaqında Əməkdar incəsənət xadimi, akademik Zemfira Səfərovanın "Azərbaycan musiqi tarixi" kitabının təqdimatları, Soltan Hacıbəyovun 100 illiyinə həsr olunmuş yubiley gecəsi və digər təqdimatlar keçiriləcək.

Festival sentyabrın 30-dək davam edəcək.

***AZƏRTAC***

# Məhkəmə-Hüquq Şurasının iclası keçirilib

***❐ Şuradan AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri, Ədliyyə naziri Fikrət Məmmədov dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı mütərəqqi tədbirləri vurğulayıb, hüquqi sahədə islahatlara əsaslı təkan verən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanın icrası üzrə ardıcıl işlərə toxunub.***

Qeyd edilib ki, hakimlərin hədsiz yüksək olan iş yükünün azaldılması, süründürməçilik hallarının qarşısının alınması, işlərə vaxtında və daha keyfiyyətlə baxılması məqsədilə Fərmana uyğun olaraq hakim ştatlarının sayı 200 vahid artırılıb. Məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə yeni ixtisaslaşmış məhkəmələr yaradılıb. Bununla əlaqədar Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin seçilməsi Qaydaları təkmilləşdirilərək namizədlərin seçimində çeviklik artırılıb, onlar üçün daha şəffaf və əlverişli şərait yaradılıb. İyulun 25-dən isə Hakimlərin Seçki Komitəsi tərəfindən növbəti müsabiqə elan olunub.

İclasda hakimliyə namizədlərin seçilməsi prosesi ilə bağlı Komitənin məlumatı dinlənilib. Qeyd olunub ki, sənədlərini təqdim etmiş 206 nəfər hakimliyə namizədlə sentyabrın 15-də Dövlət İmtahan Mərkəzində test imtahanı keçirilib. Suallar müasir texnologiyalar tətbiq edilməklə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırılıb və 158 nəfər müvəffəqiyyət qazanaraq növbəti mərhələyə buraxılıb. Hər bir namizədin nəticələri ona dərhal elan olunub və müvafiq arayış təqdim edilib. İmtahan onlayn rejimdə internetlə birbaşa yayımlanıb, çoxsaylı yerli vətəndaş cəmiyyəti və beynəlxalq təşkilat nümayəndələri tərəfindən izlənilərək şəffaf prosedur kimi yüksək dəyərləndirib.

Şuranın iclasında müsabiqənin növbəti mərhələləri ilə bağlı təşkilati məsələlərə toxunulub, sənəd qəbulunun bundan sonra da davam edəcəyi vurğulanıb. İmtahanların tam şəffaf və obyektiv keçirilməsinin, ən layiqli hüquqşünasların seçilərək hakim vəzifələrinə təyin edilməsinin vacibliyi qeyd olunub.

Həmçinin iclasda Şura tərəfindən hakimlər barədə başlanılmış intizam icraatlarına baxılıb. Qanunvericiliyin tələblərinin kobud pozulmasına və korrupsiyaya şərait yaradan, süründürməçiliyə və digər neqativ hallara yol verdiklərinə görə 6 hakim intizam məsuliyyətinə cəlb edilib, o cümlədən Bərdə Rayon Məhkəməsinin hakimi Seyfəli Seyfullayevin tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi barədə qərar qəbul edilib. Ciddi nöqsanlara yol vermiş bəzi hakimlərin fəaliyyətinin yerində öyrənilməsi qərara alınıb.

# *DÖVLƏT KOMİSSİYASI:* Azərbaycan Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Karen Kazaryan və Araik Kazaryan ilə mübadiləsinə hazırdır

***❐ Azərbaycan Respublikası tərəflərdə saxlanılan əsir-girovların "hamının-hamıya" prinsipi əsasında azad olunması və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda, meyitlərin üç gündən gec olmayaraq qaytarılmasını aidiyyəti beynəlxalq təşkilatların vasitəçiliyi ilə 2016-cı ilin aprel ayında Ermənistan Respublikasına təklif edib.***

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, bunun əksinə olaraq, kütləvi informasiya vasitələrində son günlər yayılmış məlumatlarda Ermənistan tərəfinin işğal altındakı Kəlbəcər rayonunda 2014-cü ildə girov götürülərək qeyri-qanuni azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Ermənistan Respublikasının vətəndaşları olan erməni hərbçiləri – Azərbaycan Respublikası ərazisində terror-təxribat əməllərinə görə həbs edilmiş Karen Kazaryan və cəbhənin Füzuli istiqamətində könüllü surətdə Azərbaycan Ordusuna təslim olmuş Araik Kazaryan ilə qarşılıqlı mübadilələrinə Azərbaycan tərəfinin hazır olmadığı barədə açıqlamalar verildiyi qeyd olunur.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bir daha bildirir ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan rəhbərlərinin, eləcə də Xarici İşlər nazirlərinin görüşlərində, habelə Dövlət Komissiyasının aidiyyəti beynəlxalq təşkilatlarla 2017-ci və 2018-ci illərdə apardığı müzakirələr zamanı əsir-girovların "hamının-hamıya" formatında azad olunması ilə bağlı Azərbaycan Respublikasının prinsipial mövqeyi dəfələrlə qarşı tərəfə çatdırılıb.

Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Karen Kazaryan və Araik Kazaryan ilə mübadilə edilməsinə Azərbaycan tərəfinin hazır olması barədə Dövlət Komissiyası növbəti dəfə aidiyyəti beynəlxalq təşkilatlara 2019-cu il 11 sentyabr tarixində rəsmi məlumat verib.

Dövlət Komissiyası ölkəmizin beynəlxalq humanitar hüququn norma və prinsiplərinə daim əməl etdiyini yenidən diqqətə çatdırır, sentyabrın 7-də Rusiya Federasiyası ilə Ukrayna arasında əsirlərin "hamının-hamıya" mübadiləsini yüksək insanpərvərlik aktı kimi təqdir edir və bu humanizm nümunəsinə uyğun olaraq, Azərbaycan ilə Ermənistan arasında əsir-girovların eyni prinsip əsasında qısa müddətdə azad edilməsinə tərəfdar olduğunu bir daha bəyan edir.

# *Elm üçün döyünən ürək*

Böyük alimliklə bərabər həm də dəyərli şəxsiyyət olan Nizami müəllimin xarakterindəki ədalət hissi, həssaslıq, humanistlik, xeyirxahlıq kimi yüksək mənəvi keyfiyyətlər deyilən fikrin ona aid edilməsini bütün meyarlarla əsaslandırır. Bu mütəfəkkir şəxsin dünyagörüşünün inkişafı və zənginləşməsində, onun insan və vətəndaş kimi yetkinləşməsində, eləcə də elmi potensialının formalaşmasında, şübhəsiz, doğulub böyüdüyü mühitin də rolu az olmamışdır. Bunu akademik minnətdarlıq hissi ilə belə qeyd edir: "Mən həmin kənddə -- Qazax (indiki Ağstafa) rayonunun Zəlimxan kəndində "yerli" və "gəlmə"lərin "ziddiyyətli dil-ünsiyyət mühiti"ndə boya-başa çatdım", ona görə də düşünürəm ki, mənim dil təfəkkürümdə müxtəlif türk tayfa (və xalq) dillərinin təbii (və tarixi) diferensiasiyası əks olunur."

Orta məktəbin yuxarı siniflərində oxuyarkən jurnalistikaya coşqun həvəs göstərsə də, bu arzuya qovuşmaq ona nəsib olmadı. Tanrı xeyir-duası gələcəyin qüdrətli dilçi alimini filologiya istiqamətinə yönəltdi. Məhz həmin andan dilçilik elmimizin səmasında sanki yeni bir ulduz parladı.

Tam cəsarətlə demək mümkündür ki, Nizami müəllimin bütün həyatı ana dilinə xidmət nümunəsidir. O, elmə gənc yaşlarından tükənməz yaradıcılıq enerjisi və həvəslə gəldi. Elmi yaradıcılığında, eləcə də insani keyfiyyətlərində hər an parlaq şəkildə təzahür edən bu təbii hiss və səmimiyyət bu gün də onun xarakterinin əsas cizgiləri kimi nəzərə çarpır.

Akademikin yaradıcılığı tədqiqat obyekti baxımından son dərəcə zəngin və rəngarəngdir. Bu, alimin elmi maraq dairəsinin olduqca genişliyinə əsaslanır. O, dilçiliyin sintaksis, tarixi qrammatika, etimologiya, nitq mədəniyyəti və s. sahələrinə aid onlarca dəyərli elmi əsərin müəllifidir. Onun bütün bu sahələr üzrə tədqiqat işləri dilçiliyimizin qaranlıq məqamlarına bir mayak kimi işıq saçır, dilimizin tarixi yaddaşına səyahət üçün yol göstərir. N.Cəfərovun tədqiqatları problemin həllinə orijinal yanaşma, araşdırma üsullarının özünəməxsusluğu, faktlarının dolğunluğu və s. baxımından əvvəlki nümunələrdən müsbət mənada fərqlənir. Ana dilimizlə bağlı elə bir məsələ, elə bir problem yoxdur ki, bu görkəmli alimin dərin zəkası, yüksək intellekti ondan yan keçsin.

Professor Nizami Cəfərovun elmi maraq dairəsinin əsasını ilk növbədə türkologiyanın ümumi problemləri təşkil edir. Böyük fəxrlə deyə bilərik ki, onun adı yalnız ölkəmizdə deyil, Azərbaycanın hüdudlarından kənarda da türklük ideologiyasının əsas simalarından, türkologiya elminin ən görkəmli nümayəndələrindən biri kimi məşhurdur. Adının "türk dili tarixinin əvəzsiz araşdırıcısı" professor Əhməd Cəfəroğlu və Ziya Göyalp kimi dühalarla yanaşı çəkilməsi onun türk dünyası mühitində unikal bir şəxs olmasından xəbər verir.

Görkəmli alimin Azərbaycan dilinin ən aktual problemlərinə həsr olunmuş çoxlu sayda sanballı əsəri vardır. Ensiklopedik bilik sahibi olan Nizami müəllim özünəməxsus üslubu ilə fərqlənən elmi məktəb formalaşdırmışdır. Təvazökarlıqdan uzaq olsa da, böyük bir qürur hissi ilə deyə bilərəm ki, tale mənə də bu məktəbin nümayəndələrindən biri olmağı nəsib etmişdir.

Nizami Cəfərov görkəmli alim olmaqla yanaşı, həm də böyük müəllimdir. Elmi yaradıcılığında səmimi olduğu kimi, pedaqoji fəaliyyətində də eyni təbii hissərlə özünə dərin hüsn-rəğbət qazanmışdır. Elm ilə döyünən ürək sahibi olan Nizami müəllim xeyirxahlığı və humanistliyi özünə həyat idealı seçmişdir.

"Sizə edilən ən kiçik bir yaxşılığı heç vaxt unutmayın, etdiyiniz ən böyük yaxşılığı isə heç zaman xatırlamayın" prinsipini özünün həyat amalına çevirən bu böyük müəllim həmişə fəaliyyətini bu yolla davam etdirir. Nizami müəllim azacıq bir istedad sahibi olan hər bir yetirməsini həmişə ürək genişliyi ilə irəli çəkir, himayəsini ondan əsirgəmir. Bu məqamda Aristotelin məşhur bir deyimini xatırlamaq yerinə düşər: "Kamillik yalnız biliyin dərinliyində, hisslərin zənginliyində deyil, eyni zamanda iradənin qüvvəsindədir." Onlarla gənc onun bilavasitə iradəsi, xeyirxahlığı və köməyi sayəsində elm aləminə qədəm qoymuş, dilçiliyimizin inkişafında xidmətləri olan alim kimi yetişmişdir.

Təkcə Azərbaycan dilçiliyi deyil, bütövlükdə türkologiya üçün yüksək ixtisaslı kadrların hazırlanmasında Nizami müəllimin pedaqoji fəaliyyətinin xüsusi əhəmiyyəti vardır. BDU-nun filologiya fakültəsində dekan vəzifəsində işləyən, ümumi dilçilik kafedrasını yenidən yaradıb uzun illər ona rəhbərlik edən Nizami müəllim yüksək natiqlik məharəti olan ritorik alim kimi də yüksək qiymətləndirilir. İstər tələbə auditoriyası, istərsə də ictimai-kütləvi məclis olsun, Nizami müəllimin nitqi xüsusi intonasiyası, səs tonu, aydınlığı və rəvanlığı ilə həmişə seçilir. Fikrin səlis və düzgün, eyni zamanda, poetik üsluba yaxın bir tərzdə ifadə olunması onun nitqinə xüsusi gözəllik verir. Nəinki ixtisas-fənn tələbləri, hətta auditoriyanın önündən keçən tamam kənar adamlar da bu ecazkar nitqin təsiri ilə ayaq saxlayır, Nizami müəllimin maraqlı ritorikasını dinləmək həvəsinə düşürlər.

Milli Məclisin deputatı Nizami Cəfərov ölkəmizdə təkcə dəyərli alim və böyük müəllim kimi deyil, həm də görkəmli ictimai xadim olaraq tanınır. Azərbaycanda Atatürk Mərkəzinin direktoru vəzifəsində çalışan professor N.Cəfərov həm də Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin, Dövlət Dil Komissiyasının və Milli Məclisin mədəniyyət komissiyasının üzvüdür. O, müxtəlif illərdə dünyanın bir sıra ölkələrində keçirilmiş qurultay və konfranslarda iştirak edərək Azərbaycan dilçilik elmini ləyaqətlə təmsil etmişdir və həmin missiyasını bu gün də inamla davam etdirir.

Nizami müəllimin dilçiliklə bərabər həm də çox geniş və məhsuldar ədəbiyyatşünaslıq yaradıcılığı vardır. Klassik və müasir ədəbiyyatımızın müxtəlif problemlərinə həsr olunmuş dəyərli əsərləri ona bu sahədə də böyük nüfuz qazandırmışdır.

**Bu günlərdə 60 illik yubileyini qeyd etdiyimiz görkəmli filoloq alim, akademik Nizami Cəfərovun çoxsaylı yetirmələrindən biri kimi özümə mənəvi borc bildiyim fikirləri ifadə etməzdən əvvəl aforistik səciyyəli bir deyimi yada salmaq istəyirəm: "Bir xalqın böyüklüyü onun sayca çoxluğu ilə deyil, tarixdə yetirdiyi böyük dühaları, böyük simaları ilə müəyyən edilir." Azərbaycan elmi sferasında geniş yayılmış bu aforizmin hikməti adı xalqımızın ən sanballı, sayılıb-seçilən alimləri ilə bir sırada çəkilən akademik Nizami Cəfərova da tam mənası ilə aid edilə bilər.**



Akademik N.Cəfərovun elmi yaradıcılığı təkcə filologiya elminin hüdudları ilə qapanmır. Onun çox geniş spektri əhatə edən ictimai məzmunlu yazıları alimin bu sahədə də ciddi tədqiqatçı olduğunu təsdiq edir. Təsadüfi deyil ki, Nizami müəllim ölkəmizdə ən nüfuzlu azərbaycanşünaslardan biri kimi tanınmışdır.

Görkəmli alimin xidmətləri yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə professor Nizami Cəfərov Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, AMEA-nın həqiqi üzvü seçilmiş və "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Başlanğıcda sevimli müəllimim haqqında yazmaq üçün söz tapmağın çətin olacağını düşünərək nə qədər həyəcanlanırdımsa, yekunda öz mənəvi borcunu, bir damla da olsa, yerinə yetirmiş tələbə kimi ürəyim bir qədər sakitləşdi. Əminəm ki, üzvü olduğum Nizami Cəfərov elmi məktəbi dünya durduqca öz aktuallığını qoruyub saxlayacaq, xalqımızın mötəbər bilik məxəzi sayılacaqdır.

***Ədalət ABBASOV,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# Basqalda yeni məktəb binası

**Basqal qəsəbəsi İsmayıllı rayonunun ən qədim yaşayış məntəqələrindəndir. Burada ilk məktəbin fəaliyyətə başlaması 1887-ci ilə təsadüf edir. Əvvəllər bu məktəbdə iki, 1895-ci ildən isə dörd sinif fəaliyyət göstərib. XX əsrin əvvəllərindən Basqal məktəbini bitirənlər türk dili ilə yanaşı, fars və rus dillərini də bilirdilər. İndi o vaxtdan uzun illər keçib. Müstəqillik qazanan Azərbaycan ümummilli lider Heydər Əliyevin, bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə hərtərəfli inkişaf yoluna çıxıb.**

Hazırda Basqalda əhalinin sayı 1540 nəfərdən çoxdur. Qəsəbədə bütün infrastruktur sahələri yenilənir. O cümlədən təhsilin müasir standartlar səviyyəsinə çatdırılması üçün onun maddi-texniki bazası möhkəmləndirilir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin 2018-ci il 7 noyabr tarixli sərəncamı ilə qəsəbədə tam orta məktəb üçün yeni bina tikilib və sentyabrın 17-də tədris ocağının təntənəli açılış mərasimi keçirilib. Tədbirdə təhsil naziri Ceyhun Bayramov, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, rayon ictimaiyyətinin nümayəndələri, məktəbin şagird və müəllim kollektivləri, kənd sakinləri və qonaqlar iştirak ediblər.



Açılış mərasimi dövlət himninin səsləndirilməsi ilə başlayıb. Nazir Ceyhun Bayramov ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısı, təsdiq edilən dövlət proqramlarının reallaşdırılması nəticəsində, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən əhəmiyyətli işlərdən danışıb. Təhsil naziri bildirib ki, 2003-2018-ci illərdə respublikada 3200-dən çox məktəb binası tikilib və ya əsaslı təmir edilib, nəticədə bir milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılıb.

Nazir çıxışının sonunda yeni tədris binasının açılışı və dərs ilinin başlanması münasibətilə iştirakçıları təbrik edib, uğurlar arzulayıb. Çıxış edən RİH başçısı Mirdaməd Sadıqov rayon üzrə təhsil sahəsində görülən işlərdən, nailiyyətlərdən söz açıb, təhsil işçilərinə yeni tədris ilində uğurlar arzulayıb. Qeyd edib ki, Azərbaycan təhsil sisteminin aparıcı bir bölməsi olan İsmayıllı təhsili uğurlarını ilbəil artırır. Rayonun ümumi inkişafında müəllimlər və təhsil işçiləri əhəmiyyətli rol oynayırlar. Nailiyyətlərin ardıcıl və yüksələn xətt üzrə artması əsasən onun nəticəsidir ki, cənab Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva İsmayıllı təhsilinə, bütövlükdə rayona xüsusi qayğı göstərir, tədrisin müasir standartlar əsasında təşkili üçün lazımi şərait yaradırlar. Müəllim əməyi onlar tərəfindən yüksək qiymətini alır. Bunlara görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya dərin minnətdarlığımızı bildiririk.

Qeyd edək ki, Basqal qəsəbə tam orta məktəbi ikimərtəbəli, 432 şagird yerlikdir. Məktəb binasında 1 fizika, 1 kimya, 1 biologiya laboratoriyası, 18 sinif otağı, kitabxana və oxu zalı, informatika otağı, 80 yerlik yeməkxana, 190 yerlik akt zalı, idman zalı yerləşir. Məktəb binasında videomüşahidə, yanğın əleyhinə siqnalizasiya sistemləri quraşdırılıb, internet və telefon xətləri çəkilib. Burada istiliklə təminat üçün təbii qazla işləyən, müasir tələblərə cavab verən qazanxana tikilib.



***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# FHN-in Akademiyasında ilkin hərbi hazırlığı başa vurmuş kursantların andiçmə mərasimi keçirilib



***❒ Fövqəladə Hallar Nazirliyinin (FHN) Akademiyasında ilkin hərbi hazırlığı başa vurmuş kursantların təntənəli andiçmə və bu təhsil ocağını bitirən müdavimlərin buraxılış mərasimi keçirilib.***

AZƏRTAC xəbər verir ki, mərasimdə fövqəladə hallar nazirinin müavinləri, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı, Milli Məclisin deputatları, Xüsusi Təyinatlı Təhsil müəssisələrinin rəisləri, nazirliyin məsul şəxsləri, kursantların valideynləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Akademiyanın həyətində ucaldılmış abidəsi önünə gül dəstələri qoyub, ulu öndərin xatirəsini ehtiramla yad ediblər.

Akademiyanın rəisi, general-mayor Baba Salayev şəxsi heyətin mərasimə hazır olması barədə fövqəladə hallar nazirinin müavini, general-leytenant Etibar Mirzəyevə məruzə edib.

Sonra Azərbaycan Respublikasının dövlət bayrağı meydana gətirilib. İlkin hərbi hazırlığı başa vurmuş 100 kursant təntənəli şəkildə Vətənə sədaqət andı içib.

Akademiyanın rəisi Baba Salayev bildirib ki, müstəqil dövlətin tərəqqisində təhsilin əhəmiyyətini yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev bu sahəyə diqqət və qayğı göstərirdi. Ümummilli lider bu məqsədlə ölkəmizdə digər istiqamətlərdə olduğu kimi, fövqəladə hallar sahəsində də etibarlı şəbəkənin yaradılmasını zəruri sayırdı. Məhz bu ideyanın nəticəsi olaraq, 2005-ci ildə Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin təsis edilməsi barədə sərəncam imzalayıb. Dövlətimizin başçısının 2008-ci ildə FHN əməkdaşlarının peşə ixtisasının, potensiallarının artırılması və xüsusi ixtisaslı kadrların yetişdirilməsi üçün Akademiyanın yaradılması haqqında sərəncam imzalaması bu sahədə yeni mərhələnin başlanğıcı oldu. B.Salayev akademiyaya yeni qəbul olmuş kursantlara uğurlar arzulayıb.

Mərasimdə çıxış edən fövqəladə hallar nazirinin müavini Etibar Mirzəyev kursantları və onların valideynlərini fövqəladə hallar nazirinin adından təbrik edərək, onlara təhsildə və xidmətdə uğurlar arzulayıb. Bildirib ki, bu gün kursantlar Azərbaycan bayrağına əl basaraq Vətənə, millətə sadiq olacaqlarına bir daha and içdilər. Akademiyanın müəllim, professor heyəti dörd il ərzində kursantlara zəruri bilikləri öyrədəcəklər. 2008-ci ildə Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən əsası qoyulan Akademiyanı bitirən məzunların FHN-in müxtəlif qurumlarında fəaliyyət göstərdiklərini vurğulayan nazir müavini bildirib ki, onlar insanların həyatını, mülklərini, dövlətin əmlakını canları, qanları bahasına qoruyub mühafizə edirlər.

Nazir müavini qeyd edib ki, hələ sovet hakimiyyəti illərində milli zabit kadrların hazırlanmasının zəruriliyini uzaqgörənliklə nəzərə alan müdrik rəhbər Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Məktəb açılıb. Bu məktəbin yaradılmasında əsas məqsədlərdən biri yerli zabit kadrlarının hazırlanması olub. ümummilli lider hakimiyyətə qayıtdıqdan sonra da hərbi kadrların hazırlanması istiqamətində daha geniş miqyaslı işlər həyata keçirilib. Bu müdrik siyasət ulu öndərin layiqli davamçısı, Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

E.Mirzəyev qeyd edib ki, dövlətimizin başçısının xüsusi qayğısı və diqqəti nəticəsində Fövqəladə Hallar Nazirliyinin Akademiyasında da yüksək səviyyəli peşəkar kadrların hazırlanması üçün hər cür şərait yaradılıb.

Kursantlar adından çıxış edən məzun, leytenant Fəxri Həsrətli FHN Akademiyasında təhsil almalarından qürur hissi duyduqlarını bildirib.

Sonra akademiyanı bitirən məzunlara diplomlar və "leytenant" rütbəsinin poqonları təqdim olunub.

Akademiyanı fərqlənmə ilə bitirən məzun üzərində ulduz və aypara təsviri olan emblemi rəmzi yaş kötüyünə vurub.

Daha sonra akademiyanın döyüş bayrağının təhvil verilməsi mərasimi olub. Akademiyanın döyüş bayrağı növbəti buraxılışın kursantlarına təhvil verilib.

Nümunəvi orkestrin və kursantların ifasında akademiyanın marşı ifa edildikdən sonra şəxsi heyət hərbi marşın sədaları altında tribunanın önündən keçib.

# Bakıda keçirilən bədii gimnastika üzrə dünya çempionatının üçüncü gününə yekun vurulub





***❒ Bakının ev sahibliyi etdiyi bədii gimnastika üzrə 37-ci dünya çempionatının üçüncü günündə fərdi proqram üzrə gürzlər və lentlə təsnifat yarışları keçirilib.***

"Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan yarışda milli komandamızın heyətində Zöhrə Ağamirova, Veronika Qudis və Məryəm Səfərova xalça üzərinə çıxıblar. Hər üç gimnastımızın çıxış etdiyi A qrupunda M.Səfərova 24-cü, V.Qudis 26-cı, Z.Ağamirova isə 28-ci nömrə altında lentlə proqramlarını təqdim ediblər. Təmsilçilərimizin yer aldıqları qrupda 42 gimnast mübarizə aparıb. Ümumilikdə fərdi proqramda çıxış edən gimnastlar dörd qrup üzrə yarışıblar.

Gimnastlarımız Z.Ağamirova 18.700, V.Qudis 17.150, M.Səfərova isə 10.450 xal toplayıblar.

Azərbaycan və Fransa yığmaları dünya çempionatının fərdi çoxnövçülük üzrə komanda yarışlarında eyni xal toplayıblar. Hər iki komandanın hesabında 119.900 xal var və yığmalar 18-19-cu yerləri bölüşürlər. Komanda hesabında 164.800 xalla Rusiya millisi liderlik edir.

Sentyabrın 19-da gürzlər və lentlə təsnifat yarışları təşkil olunacaq. Eləcə də gürzlər, lentlə və komanda hesabında yarışlarda qaliblər müəyyənləşəcək.

Xatırladaq ki, çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) Olimpiadaya lisenziya qazanacaqlar. Qrup hərəkətləri komandalarına gəldikdə isə ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Çempionatda çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Olimpiadaya vəsiqə əldə edəcək.

"Nağıllar gerçəkləşəcək" devizi altında təşkil olunan çempionatda 61 ölkədən 300-dən artıq gimnast 9 dəst medal uğrunda mübarizə aparır. Azərbaycan dünya çempionatına 9 gimnastla qatılıb.

***AZƏRTAC***

# Balakəndə Milli Musiqi Günü münasibətilə tədbir keçirilib

***❒ Avqustun 18-də Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 134-cü ildönümü və Milli Musiqi Günü ilə bağlı Balakəndəki "Balməkan" ailəvi istirahət mərkəzində tədbir keçirilib. Tədbirdə Balakən şəhər Uşaq İncəsənət Məktəbinin kollektivləri konsert proqramı ilə çıxış ediblər.***

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbiri giriş sözü ilə Balakən Şəhər Uşaq İncəsənət Məktəbinin direktoru Arifə Tağıyeva açaraq qonaqları salamlayıb.

Sonra rayon icra hakimiyyətinin başçısı İslam Rzayev tədbir iştirakçılarını salamlayaraq, bayram münasibətilə qonaqları təbrik etmişdir. RİH başçısı qeyd etmişdir ki, yaxın zamanlarda rayonda yeni Uşaq İncəsənət Məktəbi tikilib istifadəyə veriləcəkdir.

Daha sonra məktəbin şagirdlərindən ibarət xalq çalğı alətləri ansamblı və xor kollektivinin ifasında Üzeyir Hacıbəylinin əsərlərindən ibarət musiqi parçaları səsləndirilib. Məktəbin rəqs kollektivi bir-birindən gözəl rəqslər nümayiş etdirdi. Müğənni Seymur Qasımovun ifasında "Sevgili canan" və "Sənsiz" romansları, "Arşın mal alan" musiqili komediyasından parçalar ifa olunub.

Tədbirdə muğamlarımız və xalq mahnılarımız səsləndirilib. Muğam üçlüyündə– tarda Şahin Abdullayev, kamançada Babək Abdullayev və solo muğam ifaçısı Pərviz Quliev çıxış ediblər.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

***videokonfrans və monitorinq mərkəzinin yaradılması üçün avadanlıqların satın alınması məqsədilə***

### Açıq Tender Elan Edir

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

• İştirak haqqı 500 manatdır.
• Təşkilat- Kənd Təsərrüfatı Nazirliyi
• VÖEN- 1700069791 (kənd təsərrüfatı nazirliyi)
• H/h- AZ94C-TRE00000000000002188301 (mərkəzi aparat)
• VÖEN- 1401555071 (dövlət xəzinədarlığı agentliyi)
• Bank- Dövlət Xəzinədarlığı Agentliyi
• Büdcə səviyyəsinin kodu- 7
• Büdcə təsnifatı kodu- 142340
• Kod- 210005
• M/h- AZ-41NABZ01360100000000003944
• S.W.I.F.T. Code: CRTEAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır və ya tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam hüquqi adı, statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- malgöndərənin (podratçının) ixtisas göstərcilərinə aid məlumat;
- iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 11 oktyabr 2019-cu il saat 18.00-a və tender təklifi ilə bank təminatı sənədlərini isə 17 oktyabr 2019-cu il saat 18.00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18 oktyabr 2019-cu il saat 11.00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD**- tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

***şəbəkə infrastrukturunun təkmilləşdirilməsi və təhlükəsizliyin təmin edilməsi üçün avadanlıqların satın alınması məqsədilə***

### Açıq Tender Elan Edir

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

• İştirak haqqı 150 manatdır.
• Təşkilat- Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
• VÖEN- 1700069791 (kənd təsərrüfatı nazirliyi)
• H/h- AZ94C-TRE00000000000002188301 (mərkəzi aparat)
• VÖEN- 1401555071 (dövlət xəzinədarlığı agentliyi)
• Bank- Dövlət Xəzinədarlığı Agentliyi
• Büdcə səviyyəsinin kodu- 7
• Büdcə təsnifatı kodu- 142340
• Kod- 210005
• M/h- AZ-41NABZ01360100000000003944
• S.W.I.F.T. Code: CRTEAZ22

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır və ya tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam hüquqi adı, statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- malgöndərənin (podratçının) ixtisas göstərcilərinə aid məlumat;
- iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru ,,Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 11 oktyabr 2019-cu il saat 18.00-a və tender təklifi ilə bank təminatı sənədlərini isə 17 oktyabr 2019-cu il saat 18.00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18 oktyabr 2019-cu il saat 11.00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD**-tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## "Azərsu" ASC

***qaynaq çubuqlarının satın alınması məqsədilə kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana – Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin təchizat və satınalmaların idarə olunması departamentinin satınalmaların təşkili şöbəsinə (əlaqələndirici şəxs- satınalmalar üzrə mühəndis Ağaəli Mirzəyevə, agali.mirzeyev@azersu.az +994124314767 (2246) ) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanıb möhürlənmiş kotirovka təkliflərini 24 sentyabr 2019-cu il saat 12.00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda 25 sentyabr 2019-cu il saat 12.00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Xalq qəzeti"nin 13 sentyabr 2019-cu il tarixli nömrəsində "Azalternativenerji" MMC-nin alternativ enerji stansiyalarında təmir, profilaktika və ölçü-sınaq işlərinin satınalınması məqsədilə dərc olunmuş təkliflər sorğusunda iştirak etmək üçün təklif vermiş iddiaçıların sayı üçdən az olduğundan onun davamından imtina edilir.

***Tender komissiyası***

## "Azercell Telekom" MMC

***tələbə təqaüdü proqramına müraciətlərin qəbulunu***

### açıq elan edir

Fəaliyyət dövrü ərzində ölkəmizdə təhsil səviyyəsinin artırılması, gənclərin fərdi və peşəkar inkişafı üçün yeni imkanların yaradılması istiqamətində layihələrin həyata keçirilməsi ilə fərqlənən "Azercell Telekom" MMC bu dəfə 2020-ci il üçün tələbə təqaüdü proqramını elan edir. 2009-cu ildən başlayaraq artıq ənənəvi şəkildə hər il tələbələrə dəstək olmaq məqsədilə təşkil edilən bu layihə nəticəsində 180-dən çox gənc "Azercell" şirkətinin təqaüdçüsu adına layiq görülüb.

"Rəqəmsal dünyanı "Azercell"lə kəşf et" şüarı altında keçirilən "Azercell"ın tələbə təqaüdü proqamında son iki kurs tələbələri öz biliklərini sınaya bilərlər. Tələbələrin bacarıqları akademik bilikləri, dünyagörüşü, elmə və təhsilə həvəsi və digər meyarlar




əsasında dəyərləndiriləcəkdir. Qaliblər təhsil ilinin sonunadək "Azercell"dən 200 manat məbləğdə aylıq təqaüd almaqla yanaşı, telekom sahəsi haqda biliklərini artırmaq, rəqəmsal dünyanın ən son trendləri ilə yaxından tanış olmaq, şirkətin korporativ tədbirlərinə dəvət almaq, müxtəlif təlimlərdə iştirak etmək və təcrübə keçmək üçün əvəzolunmaz fürsət qazanacaqlar. Qeyd edək ki, "Azercell"ə tələbə təqaüdünün 2020-ci ilə iştirak üçün müraciətlərin qəbulu artıq açıqdır və son qəbul tarixi 16 oktyabr müəyyənləşdirilmişdir. Təqaüd proqramı üzrə müraciət etmək üçün müvafiq elektron müraciət ərizəsi doldurulduqdan sonra, tələbə bileti və qiymət kitabçasının ( transkript) skan versiyaları ilə birlikdə telebe@azercell.com e-mail ünvanına göndərilməlidir.

***"Xalq qəzeti"***

# Xarici xəbərlər

## Türkiyə

### Türk pilot kosmosa uçacaq



Rusiya 2023-cü ildə Beynəlxalq Kosmik Stansiyaya (BKS) türk kosmonavtı göndərməyə hazır olduğunu bəyan edib. "Roskosmos" şirkətinin rəhbəri Dmitri Roqozin deyib: "Biz türk pilotlarını və digər mütəxəssisləri bizim kosmonavt hazırlıq mərkəzində görmək istərdik. Əsas kosmonavtı və ya onun əvəzedicisini operativ hazırlamağa və yaxın illərdə BKS-ə göndərməyə hazırıq".

**Məlumatı RİA "Novosti" yayıb.**

## Yunanıstan

### Qaçqın axını artıb



Son günlər Avropa ölkələrinə əvvəlcədən proqnozlaşdırılan qaçqın axını yenidən artmağa başlayıb. Yunanıstana pənah gətirən suriyalı və Şimali afrikalı qaçqınların sayı sentyabrın birinci yarısında təqribən 4 min nəfərə çatıb. Ekspertlərin fikrincə, belə davam edərsə, ayın sonunadək yunan adalarına ümumilikdə 9 minədək miqrant gələcək. Bildirilir ki, artıq düşərgələrdə qaçqınlar üçün yer çatışmır.

**Xəbəri "Euronews" verib.**

### Krit Universiteti birincidir



Krit Universiteti Yunanıstanın ən nüfuzlu təhsil müəssisəsi seçilib. Bu fakt "Timer Higher Education" jurnalının tərtib etdiyi dünya universitetlərinin reytinq cədvəlində öz əksini tapıb. Bildirilir ki, jurnalın mütəxəssisləri seçim edərkən universitetlərin 13 ayrı-ayrı göstəricisini nəzərə alıblar. Bura təhsil, araşdırma, biznes, gəlir və digər sahələr daxildir.

**Məlumatı "France Press" yayıb.**

## ABŞ

### Yeddinci dəfə "Emmi" mükafatı



"Taxt-tac oyunları" şousu "Creative Arts Awards"ın təqdimat mərasimində ən yaxşı xüsusi effektlərə görə yeddinci dəfə "Emmi" mükafatına layiq görülüb. Fantaziya üslubunda olan televiziya serialı bu kateqoriyadan olan mükafatlara görə "Ulduzlar yolu:Növbəti nəsil" və "Ulduzlar yolu: Voycer" filmlərini qabaqlayıb. "Taxt-tac oyunları" 2012-ci ildən başlayaraq, ən yaxşı xüsusi effektlərə görə mükafatın qalibi olmuşdu. Təkcə 2017-ci ildə film nominantlar arasında olmadığı üçün mükafat almayıb. Bu il şou mükafatı filmdə həlledici döyüşlərin getdiyi "Zənglər" epizoduna görə qazanıb.

**Məlumatı RİA "Novosti" yayıb.**

## İngiltərə

### Perrott diqqət mərkəzinə düşüb



"Tottenhem"in "B" komandasının gənc futbolçusu Troy Perrott Avropanın bir sıra nəhəng klublarının diqqət mərkəzinə düşüb. On yeddi yaşlı hücumçu ilə İtaliyanın "İnter", "Yuventus", İspaniyanın "Barselona" və "Real" klubları yaxından maraqlanırlar. Yeri gəlmişkən, "Tottenhem"in baş məşqçisi Maurisio Poçettinonun da gənc oyunçunu əsas komandaya cəlb etməkdə maraqlı olduğu açıqlanıb.

Qeyd edək ki, "Tottenhem"in "B" komandasında çıxış edən Perrott, bu mövsüm Premyer Liqa 2-də iki qol vurub.

**Xəbəri "Futbol.ua" verib.**

*Hazırladı:*
***Elçin ABBASOV, "Xalq qəzeti"***

# ABŞ ilə Yaponiya arasında ilkin razılaşma əldə olunub

***ABŞ və Yaponiya hökumətləri arasında bir ilə yaxın davam edən danışıqlardan sonra Prezident Donald Tramp bu ölkə ilə ticarət sazişi bağlamaq planı barədə Konqresə məktub göndərib. Bu barədə "Bloomberg" agentliyi məlumat yayıb.***



Agentlik yazır ki, Ağ ev rəhbəri ticarət sazişini Yaponiya hökumətinin başçısı Sindzo Abe ilə bu ayın sonunda imzalamaq niyyətindədir. Bildirilir ki, S.Abenin sentyabrın sonunda BMT Baş Assambleyasında iştirak üçün Nyu-Yorka səfəri planlaşdırılır.

ABŞ Prezidenti ticarət danışıqlarında əldə olunan ilkin razılıqla bağlı deyib: "Mən administrasiyamın Yaponiya ilə tarif baryerlərinə münasibətdə ticarət sazişi üzrə ilkin razılaşmalara nail olduğu barədə xəbər verməyə şadam. Yaxın həftələrdə sazişi bağlamaq niyyətindəyəm. Mənim administrasiyam tərəflər arasında daha ədalətli və qarşılıqlı ticarət sazişinin bağlanması barədə Yaponiya ilə bundan sonrakı danışıqlarda Konqreslə əməkdaşlığın davam etdirilməsinə ümidvardır".

ABŞ lideri onu da əlavə edib ki, o, Yaponiya ilə rəqəmsal ticarətə dair icra sazişini də imzalayacaq. ABŞ-ın ticarət nümayəndəsi Robert Laythayzer bəyan edib ki, ilkin saziş sənaye, kənd təsərrüfatı və rəqəmsal satış sahələrini əhatə edir. Lakin Yaponiya istehsalı olan avtomobil və onların ehtiyat hissələri üzərinə qoyulan 2,5 faizlik tarifləri ləğv olunmur.

***Mahmud QƏRİBOV, "Xalq qəzeti"***

# ABŞ ordusu döyüş hazırlığı vəziyyətinə gətirilib

***Səudiyyə Ərəbistanının neft obyektlərinə hücumdan sonra ABŞ ordusu döyüş hazırlığı vəziyyətinə gətirilib.***





ABŞ-ın vitse-prezidenti Maykl Pens bildirib ki, hadisəni araşdırmaq üçün ABŞ-ın Dövlət katibi Səudiyyə Ərəbistanına gedib.

ABŞ KİV-nin məlumatına görə, ABŞ və Ər-Riyad müstəntiqləri hadisəni birgə araşdıracaqlar.

Krallıqdan bildiriblər ki, neft emalı zavoduna dəymiş ziyan bərpa olunub və hazırda dünya bazarına "qara qızıl"ın ixracı davam etdirilir.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***



**Fransa Prezidenti Emmanuel Makron Səudiyyə Ərəbistanının neft kəmərlərinə və Ər-Riyaddakı neft emalı zavodlarına təşkil olunmuş terror hücumunu araşdırmaq üçün bu ölkəyə ekspert qrupunun göndəriləcəyini açıqlayıb. Bu barədə "France Press" məlumat verib.**

# Fransa Prezidenti: Səudiyyə Ərəbistanına ekspert qrupu göndəriləcək

Mənbə qeyd edir ki, Emmanuel Makron Səudiyyə Ərəbistanına göndəriləcək mütəxəssislərin hücumla əlaqədar istintaq aparacağını bəyan edib. O, Səudiyyə Ərəbistanının zavodlarının vurulması ilə əlaqədar beynəlxalq istintaq aparılmasını tələb etdiyini xatırladıb.

Qeyd edək ki, Səudiyyə Ərəbistanı artıq neft ixracatını, neft obyektlərinə hücumlardan əvvəlki səviyyəyə qədər tam bərpa etdiyini açıqlayıb.

Ölkənin energetika naziri şahzadə Əbdül Əziz bin Salman bu barədə Ciddədə keçirilən mətbuat konfransında deyib ki, Ər-Riyad cari ilin oktyabr ayının sonu üçün neft hasilatının həcmini sutkada 11 milyon barrel, noyabrın sonu üçün isə sutkada 12 milyon barelə çatdıracaq. Hazırda Krallıqda sutkada 10 milyon barrel neft hasil olunur.

O, həmçinin "Saudi Aramco" neft şirkətinin bu ay müştərilər qarşısındakı öhdəlikləri yerinə yetirəbiləcəyini söyləyib.

***Rövşən ATAKİŞİYEV, "Xalq qəzeti"***

# NATO Əfqanıstanda seçkiqabağı vəziyyətdən narahatdır

***NATO rəsmisi bildirib ki, alyans rəhbərliyi Talibanla müzakirələrdən sonra Əfqanıstanda sabitliyin bərpa edilməsinə ümid bəsləyir. Bu barədə "Amerikanın səsi" məlumat yayıb.***



Xəbərdə qeyd olunur ki, Əfqanıstanda sülh müzakirələri həftəsi gərgin keçib. Kabildə bir ABŞ əsgəri də daxil edilməklə, onlarca insanın ölümünə səbəb olan terror hücumundan sonra Prezident Donald Tramp əfqanıstanlı həmkarı və Talibanla müzakirələri təxirə salıb.

Bir neçə gün sonra Taliban Moskvada görüş keçirib. Taliban Vaşinqtonla müzakirənin davam etdiriləcəyini bildirsə də, 100 illərlə mübarizənin davamına da hazır olduğunu bəyan edib.

Qeyd edək ki, NATO-nun hərbi liderləri bu günlərdə Sloveniyada keçirilən görüş zamanı Əfqanıstanla bağlı narahatlıqlarını dilə gətiriblər. NATO komandiri Tod Uolters bildirib: "Əfqanıstanla bağlı bir sıra narahatlıqlar mövcuddur. Hazırkı anda biz NATO tərəfdaşlarına ABŞ-ın və NATO-nun öhdəliyinə sadiq qaldığına dair mesajlar göndəririk. Missiyamız davam etdirilir".

Alyansın Hərbi Komitəsinin rəhbəri Stüart Piç isə bu məsələ ilə bağlı deyib: "Bu mövzuda parçalanma mövcud deyil. Müttəfiqlər tamamilə möhkəm vəhdətə malikdir. Son görüş zamanı Əfqanıstan missiyasına sadiq olduqlarını bir daha təsdiq etdilər".

NATO komandirləri Əfqanıstanda prezident seçkiləri öncəsi zorakılıqların artacağından narahatdırlar. General Tod Uolters vurğulayıb ki, seçkilər çox ehtimal ki, mükəmməl olmayacaq. Amma seçkilərin mümkün qədər təhlükəsiz və etibarlı şəraitdə keçirilməsi üçün bütün imkanlara əl atılacaq.

Sonda bildirək ki, Əfqanıstan Prezidenti Əşrəf Qani bir neçə gün əvvəl bildirib ki, ölkədə atəşkəs əldə edilməyincə, Talibanla müzakirələr təxirə salınacaq. Yeri gəlmişkən, Ə.Qani yenidən dövlət başçısı postu uğrunda mübarizə aparır.

***M.HACIXANLI, "Xalq qəzeti"***


## "Azərsu" ASC daxili vəsaiti hesabına Sumqayıt Sukanal İdarəsinin inzibati binasına mebel dəstlərinin satınalınması məqsədi ilə kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana – Bakı şəhəri, Moskva prospekti 67, "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinin rəis müavini (əlaqələndirici şəxs:Murad Abışev, telefon: 431 47 67/1087 və Tural Rzayev, 431 47 67/2266) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 25 sentyabr 2019-cu il saat 12.00-dan gec olmamaq şərti ilə təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

Kotirovka təklifləri "Azərsu" ASC-nin Bakı şəhəri, Moskva prospekti 67 nömrəli ünvanda 26 sentyabr 2019-cu il saat 15.00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər

***Tender komissiyası***



## "Kürdəmir Regional Aqrar Elm və İnnovasiya Mərkəzi

***kənd təsərrüfatı texnikası və toxum materiallarının satın alınması xərclərinin ödənilməsi üçün***

## kotirovka sorğusu elan edir

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər "Kürdəmir Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin Kürdəmir rayonu, Garis-Əyribənd kəndindəki inzibati binasına müraciət edə bilərlər (əlaqələndirici şəxs- Aişə Həsənova, telefon- 994(55)278-00-04 faks: 994(55)278-00-04.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyən şəxslər imzalanıb möhürlənmiş kotirovka təkliflərini (əlavə olaraq qiymət cədvəli və şərtlər toplusunda göstərilən sənədlər) 23 sentyabr 2019-cu il saat 15.00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər.

Təklif zərfləri Kürdəmir rayonu, Garis-Əyribənd kəndi "Kürdəmir Regional Aqrar Elm və İnnovasiya Mərkəzi"nin inzibati binasının 2-ci mərtəbəsində 24 sentyabr 2019-cu il saat 17.00-da açılacaqdır.

Kotirovka sorğusunda tələblərə cavab verən iştirakçılardan ən aşağı qiymət təqdim edən malgöndərən qalib hesab olunacaqdır.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.



✓ *Əzizov Ağaqulu Sayadxan oğlunun adına verilmiş əmək veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

✓ *Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən Məmmədli Qüdrət Şahin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

✓ *Bakı Musiqi Akademiyası tərəfindən Mahmudzadə Məmməd Qulam oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

✓ *Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyi tərəfindən Vəliyev Əlövsət Əkbər oğlunun adına verilmiş 31158 nömrəli əlillik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*


## Hava proqnozu

➲ **Sentyabrın 19-da**

➲ **Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək. Cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq, arabir güclənəcək. Gecə 18-21, gündüz 27-31, Bakıda gecə 19-21, gündüz 29-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 50-55 faiz olacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** yağmursuz keçəcək. Qərb küləyi əsəcək. Gecə 11-16, gündüz 30-35 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 10-15, gündüz 21-26 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 16-21, gündüz 27-32 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam saatlarında bəzi şərq rayonlarında şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Gecə 15-20, gündüz 25-30 , dağlarda gecə 7-12, gündüz 19-24 dərəcə isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 18-23, gündüz 30-35 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Səhər dağlarda duman, çiskin olacaq. Şərq küləyi əsəcək. Gecə 17-21, gündüz 27-32, dağlarda gecə 13-18, gündüz 23-28 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN

Suraxanı rayonundan İlqar Abbasov "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova və Ayaz Hüseynova əzizləri

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Suraxanı rayonundan İlqar Abbasov Prezident Administrasiyasının sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin sektor müdiri Aybəniz Novruzovaya həyat yoldaşı

**ƏLƏDDİN QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
HƏSƏN HƏSƏNOV

TELEFONLAR:
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompyuter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 7796
SİFARİŞ 3091
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00